


## Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıdakı görüşündə bəyanat imzalandı

*Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində iyulun 6-da Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşəbbüsü ilə "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılması" mövzusunda dəyirmi masa keçirilib. Dəyirmi masanın yekunlarına dair bəyanat qəbul edilib. Bütün dünyada müstəmləkəçiliyə...*

Səh.2



## Ermənistan rəhbərliyi Azərbaycanın anti-terror əməliyyatı niyyətindən qorxuya düşüb

*Belçikanın paytaxtı Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş olacaq."Unikal" xəbər verir ki, bunu iyulun 6-da hökumətin iclasında N.Paşinyan deyib. O söyləyib ki, görüş Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçiriləcək. N.Paşinyan bildirib ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətni imzalanmaya hazır deyil, eyni zamanda bunun üçün şərait yetişməyib: "Ümid edirəm ki, qarşıdan gələn görüş zamanı Vaşinqtonda qeydə alınan müsbət məqamlar nəzərə alınacaq".*

Səh.8


# UNİKAL

№24 (2158) 7 iyul 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




Səh.8

## Vüqar Qurbanovla Anar Bayramov hədəfdə

## "Makronun daxili siyasətdən xəbəri yoxdur"



*Milli Məclisin Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, deputat Kamran Bayramov "Unikal"a müsahibə verib. O, Bakıda bir sıra ölkələrin XİN rəhbərlərinin iştirakı ilə keçirilən toplantının əhəmiyyətindən, Fransada son baş verən hadisələrdən və başqa məsələlərdən danışıb.*

Səh.4

## "Müstəmləkəçilik bəşər tarixinin rüsvayçılıq səhifəsidir" - Hikmət Hacıyev



*"Müstəmləkəçilik bəşər tarixinin rüsvayçılıq səhifəsidir". "Unikal" xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tviter səhifəsində yazıb.*

Səh.3

## Hikmət Həsənovun köməkçisi "Tərtər işi"nə görə hakim qarşısına çıxarılır



*Yaxın vaxtlarda "Tərtər işi"nə daxil olan yeni bir qrupun işi üzrə daha bir məhkəmə prosesi başlayacaq. "Unikal" Musavat.com-a istinadən xəbər verir ki, bu qrupda mühakimə olunanlar sırasında general Hikmət Həsənovun hüquq məsələləri üzrə köməkçisi Fuad Ağayev, eləcə də Cümşüd Qurbanov...*

Səh.9

# Türk mediası Ebrun ilə Günel arasındakı qalmaqaldan yazdı



***Xəbər verdiyimiz kimi, türkiyəli müğənni Ebru Gündeş Şəmkirdə baş tutan toyda illərdir küsülü olduğu Günel Zeynalovanın yer almasına mane olub.***

Türk mediası baş verən hadisədən yazıb. Onlar Günelin "Ebru Gündeş ruzimi kəsdi" sözlərini qeyd ediblər. Vurğulanıb ki, bir gecədə səhnə alması planlaşdırılan Günelin çıxışına Ebru əngəl olub.

Yazıda iki ifaçı arasında illərdir iş adamı Reza Zarraba görə yaşanan qalmaqalın bitmədiyi qeyd edilib.

Xatırladaq ki, Günel Ebru Gündeşin keçmiş həyat yoldaşı Reza Zarrabla nişanlı olub. İş adamı Günelə Ebru ilə xəyanət edib. Uzun illərdir ifaçılar arasındakı küsülülüyün səbəbi də budur.

# Renka: "Sürücülər sıxışdırsalar, güzgülərini təpikləyəcəyəm"

***Renka ləqəbi ilə şou-biznesdə məşhurlaşan ərəb rəqslərinin mahir ifaçısı Rəna Ağamuradovanın başına iş gəlib.***

"Unikal" bizim.media-ya istinadən bildriir ki, rəqqasə "Səhər mərkəzi" verilişinin canlı efirinə gələrkən düzgün istiqamətdə saxlamadığına görə avtomobili cərimə meydançasına aparılıb. Avtomobilsiz qalan Renka motosikletin sükan arxasına əyləşərək özünü proqrama yetişdirməyi bacarıb.

Renka bildirib ki, verilişə gələrkən yolda təhlükəli anlarla üz-üzə qalıb: "Avtomobilimi cərimə meydançasına apardılar. İçində geyimlərim vardı. Yarım saatın içində "Harley Davidson" markalı motosikletlə evimin yanında olan geyim mağazasına getdim. Oradan paltar götürüb, tələsik gəldim verilişə. Axşam avtomobilimi küçədə saxlamışdım. Səhər gəldim gördüm ki, maşın orada yoxdur. Sonradan bildim ki, dövlət tədbiri keçirildiyi yerdə avtomobili saxlamışam. Buna görə də avtomobilimi cərimə meydançasına aparıblar. Motosikletin sükan arxasına 6-7 aydır ki, oturmuşam. Əslində çox çətinlik çəkirəm. Çünki yolda avtomobillər məni sıxırlar. Heç bir avtomobili cızmamışam. Avtomobil sürücüləri motosiklet görəndə çox əsəbləşirlər.



Amma səbibini mən də bilmirəm. Əgər avtomobillərin sürücüləri məni bir neçə dəfə yolda sıxışdırsalar, motosiklet enib təpiklə onların güzgülərini sındıracağam. Bundan əvvəl başıma belə hadisə gəlib. Yolda məni avtomobilin sürücüsü sıxışdırdı. Mən də o maşını ayağımla təpiklədim. Heç nə etmədi, çünki günah onda idi".

Daha sonra rəqqasə yaxın günlərdə motosikletlə Gürcüstana və Türkiyəyə gedəcəyini də açıqlayıb: "Motosiklet sürəndə tamam başqa hislər keçirirsən. Daha əvvəl motosikletdə sərnişin kimi Şəkiyə qədər getmişəm. Bu yay Gürcüstana və Türkiyəyə də motosikletdə getmək istəyirəm. Quru sərhədlə motosikleti keçirəcəyəm. Özüm isə təyyarə ilə Gürcüstana gedəcəyəm. Sonra da oranın sərhədinə yaxınlaşıb motosikleti götürüb gedəcəyəm".



# "Atama heç vaxt halallıq vermirəm" - Günel Ələkbərova

***"Pişik" ləqəbli müğənni Günel Ələkbərova "Ümid ilə gəl" proqramına qonaq olub.***

"Unikal" publika.az-a istinadən xəbər verir ki, veriliş zamanı ifaçı rəhmətə gedən atasından danışıb.

Müğənni kövrələrək ona halallıq vermədiyini açıqlayıb: "Ölüm ayağında olanda məni çağırdı. Dedi ki, halallıq ver. Dedim heç vaxt verməyəcəm. İnşallah Tanrı axirətdə məni onunla qarşı-qarşıya qoyar. Mən də öz hesabatımı ondan soruşaram. Çünki o, yanımızda olsaydı, ögey ata əlində böyüməzdim. Anam ailə həyatı qurub, 2 yaşım olanda onlar ayrılıblar. Özü də elə-belə adam da deyil, tanınmış adamdır. Çoxları da tanıyır. Çətin vaxtlarımda, qapıma elçi gələndə yanımda olmayıbsa mənə lazım deyil. Siz mənim yerimdə olsaydınız, halallıq verərdiniz?".

# Samirədən tənqidlərə sərt reaksiya

***"İşinizlə məşğul olun. Burnunuz girmədiyi yerə başınızı soxmağa çalışmayın. Baş gedər".***



Bu sözləri "Avroviziya" təmsilçilərimizdən olan Samirə Efendi sosial şəbəkə istifadəçilərinə yazıb. Müğənni "Avroviziya" yarışmasında olarkən ingilis dilində danışmamasını tənqid edənlərə cavab verib.

Samirə "Bu ingilis dilini "Avroviziya"da da nümayiş elətdirərdiniz" şərhinə "Bunu yazan adam, özünüzü bir damcı önəmli hiss edəsiniz deyə, birinci və sonuncu dəfə bunu deyəcəyəm: 2008-ci ildən ölkəmiz təmsil olunur, amma dilimizi nə eşidən, nə də eşitdirən olub. Ona görə də bu cür ağıllı və buna bənzər rəylərinizi özünüzə saxlayın" cavabını verib.

Qeyd edək ki, Azərbaycanı "Mata Hari" mahnısı ilə təmsil edən Samirənin müsabiqə zamanı ingilis dilində danışmaması müzakirələrə səbəb olmuşdu.

# "40 yaşım var, heç bir estetik etdirməmişəm" - Xuraman Şuşalı

***Müğənni Xuraman Şuşalı "Elgizlə izlə" proqramında qonaq olub.***

Axşam.az xəbər verir ki, verilişin aparıcı Elgiz Əkbər ifaçının burnunun estetik əməliyyata ehtiyacı olduğunu deyib: "Xuraman qəşəng xanımdır, amma bircə burnu. Neçə ildir o burnu Xuramana əməliyyat etdirə bilmirəm. Əgər əməliyyat etdirsə, lap qəşəng olacaq".

Xuraman aparıcıya cavabında belə bir fikrinin olmadığını vurğulayıb: "Olanım budur. Bir azdan adım kitaba düşəcək ki, 40 yaşım var, heç bir estetik etdirməmişəm. Hələ ki, nəsə elətdirmək fikrim yoxdur".



# Taleh Kazımova yeni səlahiyyətlər verilir

***Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinə yeni səlahiyyətlər verilir.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Mərkəzi Bankın İdarə Heyəti maliyyə bazarlarını tənzimləyən qanunlara müvafiq olaraq bu sahədə lisenziyaların verilməsi və ləğv edilməsi, maliyyə bazarlarını tənzimləyən qanunlarda nəzərdə tutulmuş hallarda Mərkəzi Bankın nəzarət etdiyi subyektlərdə müvəqqəti inzibatçının təyin olunması və fəaliyyətinə xitam verilməsi, habelə rezolyusiya tədbirlərinin görülməsi barədə qərar qəbul edəcək.

Mərkəzi Bank maliyyə bazarlarının fəaliyyətinin sabitliyi və dayanıqlığını təmin etmək məqsədilə banklar, bank olmayan kredit təşkilatları, sığorta bazarının peşəkar iştirakçıları, investisiya şirkətləri və qiymətli kağızlar bazarında digər lisenziyalaşdırılan şəxslər, investisiya fondları, investisiya fondunun idarəçiləri, klirinq (prosessinq) fəaliyyətini həyata keçirən şəxslər, kredit büroları və maliyyə bazarlarını tənzimləyən qanunlarla Mərkəzi Bankın nəzarət etdiyi subyektlər kimi müəyyən edilən digər şəxslərin (nəzarət subyektlərinin) fəaliyyətinin lisenziyalaşdırılmasını, tənzimlənməsini və fəaliyyətləri üzərində nəzarəti həyata keçirəcək.

Eyni zamanda İdarə Heyəti hüquqi şəxslərin yaradılması və (və ya) onlarda iştirak və sosial layihələrin (tədbirlərin) maliyyələşdirilməsi ilə bağlı qərar qəbul edəcək, məşvərətçi daxili komitələr yaradacaq və onların əsasnamələrini təsdiq edəcək, fond birjasından kənarda qiymətli kağızlar və törəmə maliyyə alətləri ilə ticarətin təşkil olunduğu digər ticarət sistemini müəyyən edəcək.

Müzakirələrdən sonra dəyişikliklər səsverməyə qoyularaq III oxunuşda qəbul edilib.

***Anar Kəlbiyev***

# Deputat AZAL-ı tənqid etdi



***"AZAL Naxçıvana təyyarə məsələsi ilə bağlı illərdir açıqlama verir. Amma həll olunmur. Bunun səbəbi korrupsiya ilə bağlıdır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Fazil Mustafa deyib.

"Gürcüstandan İstanbula təyyarə ilə getmək 100, Bakıdan isə 700 manatdır. Bunun üstündə pul tuturlar. Naxçıvana gedəndə isə 20 manat qazanırlar. Onlar fikirləşir ki, reyslərin çoxunu başqa yerə yönəldim, 300-400 manat qazanım. Biz bu məsələni elə həll etməliyik ki, yoxsullıq içində yaşayan əhali sıxıntı çəkməsin", - deyə deputat bildirib.

***Anar***

# Anar Bayramovla Vüqar Qurbanova bəd xəbər

## İki dövlət orqanının tabeliyindəki qurumlarda genişmiqyaslı yoxlamalar aparıla bilər

***Son günlər Azərbaycanda rüşvət və korrupsiya faktlarına görə müxtəlif vəzifəli şəxslərin yeni həbs və istintaqa cəlb edilmə dalğası müşahidə olunur.***

Məsələn, yola salmaq üzrə olduğumuz həftə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Xaçmaz rayon şöbəsinin rəisi Ağayev Rahim Əlifağa oğlunun qanunsuz əməlləri ifşa olundu. Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, əməliyyat-istintaq tədbirləri ilə Rahim Ağayevin həmin vəzifədə işləyərkən çağırışçının sağlamlıq vəziyyətilə əlaqədar həqiqi hərbi xidmətə yararsız hesab edilməsinə köməklik göstərilməsi müqabilində vətəndaşdan tələb etdiyi 8 min manat məbləğində pul vəsaitinin 5 min manatını rüşvət qismində almasına əsaslı şübhələr müəyyənləşdirilib. Nəticədə onun barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.



Bundan başqa, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi əməkdaşları tərəfindən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin daha iki rayon şöbəsində (Cəlilabad və Laçın) əməliyyat keçirilib. Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən fakt təsdiqlənib və bildirilib ki, ətraflı məlumat veriləcək.

Ötən həftə isə Saatlı Rayon Mərkəzi Xəstəxanasının keçmiş baş direktorları Səidə Şahpələngova və Ələkbər Əkbərov, hazırkı şöbə müdiri Asif Həsənov barəsində cinayət işi başlandığı barədə məlumat yayılmışdı. Qeyd edilirdi ki, onlar vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə külli miqdarda mənimsəmədə ittiham olunurlar.

İş üzrə təqsirləndirilən şəxslər arasında xəstəxananın digər əməkdaşları Rəfail Quliyev və Mirqalim İbrahimov da var.

Onların hər biri Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda ziyan vurmaqla mənimsəmə) maddəsi ilə ittiham olunurlar.

Təqsirləndirilən şəxslərin yaşları nəzərə alınaraq istintaq dövrü müddəti üçün barələrində həbsə alternativ qətimkan tədbiri seçilib.

Qeyd edək ki, Səidə Şahpələngova bir neçə il əvvəl də vəzifə səlahiyyətlərindən sui-istifadəyə görə cinayət məsuliyyətinə cəlb edilib. Həmin vaxt iş üzrə dəymiş ziyan tam ödənildiyinə görə ona həbs cəzası verilməyib. O, bir müddət sonra vəzifəsindən azad edilib. S.Şahpələngovadan əvvəl isə xəstəxananın direktoru Ələkbər Əkbərov olub.

Ümumiyyətlə isə son vaxtlar bir çox sahələr üzrə mərkəzi orqanların yerli (rayon, şəhər, yaxud regional) idarələrində, şöbələrində yoxlamalar həyata keçirildiyi, aşkarlanan rüşvət və korrupsiya hallarına görə cinayət işi açıldığı, istintaq aparıldığı barədə xəbərlərə rast gəlinməkdədir. Elə təkcə son iki həftəyə dair nümunələr də fəaliyyətlərində qanunsuzluqlara yol verən məmurların hüquq-mühafizə orqanları tərəfindən ifşa dalğasının səngimədiyini göstərir. İddialara görə, qarşıdakı dövrdə bu dalğanın miqyası genişlənə bilər. Belə ki, son vaxtlar Anar Bayramovun rəhbərlik etdiyi Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi ilə Vüqar Qurbanovun rəhbərlik etdiyi Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyindəki qurumlarda yoxlamalara start verilməsi, nəticədə bəzi vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb olunma ehtimalı yüksəkdir. Belə ki, əlilliyin müəyyən edilməsi və əlilliyi olan şəxslərin reabilitasiyası sahəsində son vaxtlar artan şikayətlər, rüşvət iddiaları Bayramovun rəhbəri olduğu Agentliyin nəzdindəki bir sıra TSEK-lərin (Tibbi-Sosial Ekspertiza Komissiyalarının) fəaliyyəti ilə bağlı ciddi şübhələrin yaranmasına gətirib çıxarıb. TƏBİB-in tabeliyində Bakı və Sumqayıt üzrə yaradılan tibbi mərkəzlərdə də rüşvət və korrupsiya hallarının tüğyan etməsinə dair iddialar, ittihamlar intensivləşib. Xüsusilə Sumqayıt, Xətai, Sabunçu tibb mərkəzlərinin fəaliyyətində xeyli nöqsanların olduğu yönündə xəbərlər səngimir. Hətta "Sumqayıt Tibb Mərkəzi" Publik Hüquqi Şəxs tərəfindən dövlət vəsaitlərinin və digər dövlət əmlakının idarə olunmasına dair qanunvericiliyin pozulması barədə Hesablama Palatasından daxil olmuş material əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparıldığı, Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlandığı bu yaxınlarda rəsmən açıqlanıb.

Deyilənlərə görə, Vüqar Qurbanovun TƏBİB rəhbərliyinə təyinatı hələ ki gözlənilən effekti verməyib və bu publik şəxsin tabeliyindəki tibb müəssisələrində başda rüşvət, korrupsiya, vəzifədən sui-istifadə olmaqla çoxsaylı qüsurlar, qanunsuzluqlar "at oynatmaqda" davam edir.

Anar Bayramov isə 2021-ci ildə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədri təyin edildikdən sonra TSEK-lərin fəaliyyətinə nəzarəti gücləndirib, qurumun əlilliyin qiymətləndirilməsində qanunsuz hərəkətlərə yol verməş onlarla əməkdaşı vəzifəsindən kənarlaşdırılıb, yaxud sənədlərin saxtalaşdırılması faktlarının araşdırılması məqsədilə çoxsaylı əlillik sənədləri hüquqi qiymət verilməsi üçün Baş Prokurorluğa təqdim edilib. Lakin sonradan bu nəzarət zəifləməyə başlayıb və hazırda istər sosial mediada, istərsə də yazılı və elektron KİV-də TSEK-lərdə xoşagəlməz halların yenidən intensivləşdiyi barədə xəbərlərin çoxaldığı müşahidə olunur...

***Toğrul Əliyev***

# Ermənistan rəhbərliyi Azərbaycanın anti-terror əməliyyatı niyyətindən qorxuya düşüb

***Belçikanın paytaxtı Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş olacaq."Unikal" xəbər verir ki, bunu iyulun 6-da hökumətin iclasında N.Paşinyan deyib. O söyləyib ki, görüş Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçiriləcək. N.Paşinyan bildirib ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətni imzalanmaya hazır deyil, eyni zamanda bunun üçün şərait yetişməyib: "Ümid edirəm ki, qarşıdan gələn görüş zamanı Vaşinqtonda qeydə alınan müsbət məqamlar nəzərə alınacaq".***

Ermənistanın baş naziri Nikol Paşinyan yenə Rusiya prezidenti Vladimir Putinə zəng edib. Kremldən yayılan açıqlamada telefon danışığının Nikol Paşinyanın təşəbbüsü ilə gerçəkləşdiyi bildirilib. Telefon danışığı zamanı Qarabağla bağlı məsələlərin müzakirə edildiyi açıqlanıb. Belə olan halda Paşinyanın narahatlığının səbəbi maraq doğurub.



Məsələ ilə bağlı "Unikal"a açıqlama verən Milli Məclisin deputatı Arzu Nağıyev bildirib ki, Azərbaycan anti-terror əməliyyatı keçirsə, bunu nə Ermənistanla, nə də Rusiya ilə razılaşdırılmış şəkildə etməyəcək: "Qarabağda olan Rusiya sülhməramlı qüvvələri ilə bir sıra məsələlərdə ümumi plan üzrə hərəkət etmək olar. Ona görə də, Nikol Paşinyanın Rusiya Prezidenti Vladimir Putinə zəng etməsi, və yaxud bu kimi detalları razılaşdırması o qədər də inandırıcı görünmür. Əsas məsələ ondan ibarətdir ki, bu gün danışıqlar həm Amerika Birləşmiş Ştatları (ABŞ), həm Avropa İttifaqı, həm də Rusiya müstəvisində gedir. Məlum məsələdir ki, Rusiya bu danışıqlarda əsas rol oynayan dövlətlərdən biridir. Düşünmürəm ki, bu telefon zəngi Paşinyanın Azərbaycan tərəfindən keçirilməsi mümkün olan anti-terror əməliyyatı ilə bağlıdır. Onlar digər məsələləri də müzakirə edə bilərlər", - deyə o qeyd edib.

Deputat Brüsseldə Prezident İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyan arasında keçiriləcək görüşlə bağlı da fikirlərini səsləndirib: "Dövlət başçılarının görüşləri adətən xarici işlər nazirlərinin görüşlərindən sonra baş tutur. Həmin görüşdə də nazirlər arasında razılaşdırılan detalların bir daha müzakirəsi aparılır. Düşünürəm ki, Azərbaycanın və Ermənistanın təklifləri müzakirə olunmalıdır. Humanitar məsələlər, əsir və girovların dəyişdirilməsi, baş verən sonuncu proseslərə qiymət vermək, delimitasiya və demarkasiya məsələləri, Vaşinqton görüşünün nəticələrinin bir daha müzakirəyə çıxarılacağını deyə bilərəm".

Politoloq Elxan Şahinoğlu Ermənistan və Rusiya liderlərinin telefon danışığını şərh edərkən deyib ki, Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın Qarabağda anti-terror əməliyyatına başlaya biləcəyindən narahatdır. Onun fikrincə, Ermənistanın baş naziri Nikol Paşinyan yenə Rusiya prezidenti Vladimir Putinə zəng etməsi də məhz bu narahatlığını dilə gətirməyə hesablanıb: "Kremldən yayılan açıqlamada telefon danışığının Nikol Paşinyanın təşəbbüsü ilə gerçəkləşdiyi bildirilib. Paşinyanın narahatlığı bölgədə gərginliyin artmasıyla bağlıdır. Paşinyan Azərbaycanın Qarabağda anti-terror əməliyyatına başlaya biləcəyindən narahatdır. Onun Putinə zəngi xəbərçilik anlamı daşıyır. Halbuki, Putinə bölgədəki vəziyyət barədə hər gün kəşfiyyat məlumatları çatdırılır və onun Paşinyanın məlumatlarına ehtiyacı yoxdur".

"Qarabağ separatçıları əvvəlkitək Rusiya hərbi kontingentinin müşayiəti ilə bir məntəqədən o birisinə silah daşımaqda davam edirlər. Bu təxribatın sadə səbəbi var. Separatçılar bilirlər ki, Rusiya hərbi kontingentinin müşayiəti olmasa hərbi texnikaları havadan vurulacaq. Erməni separatçılarını müşayiət edən Rusiya hərbi kontingenti Kreml sahibinin əmrini yerinə yetirir", - politoloq vurğulayıb.

MCP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə isə Azərbaycan və Ermənistan rəhbərlərinin növbəti Brüssel görüşü barədə fikirlərini bölüşüb. O bildirib ki, Brüsseldə keçiriləcək görüşdə N. Paşinyan Azərbaycanın şərti ilə razılaşa bilər: "İyulun 21-də Brüsseldə Azərbaycan və Ermənistan liderləri növbəti dəfə görüşəcək. Avropa İttifaqının vasitəçiliyi ilə keçiriləcək görüşdə sülh müqaviləsinin detalları və danışıqlar prosesində olan fikir ayrılıqları müzakirə ediləcək. Qeyd edim ki, Brüssel görüşündə sülh müqaviləsinə əngəl olan Qarabağda Ermənistan silahli qüvvələrinin qalıqlarının çıxarılması müzakirə ediləcək. Brüsseldə keçiriləcək görüşdə N. Paşinyan Azərbaycanın təklifi ilə razılaşa bilər. Çünki Ermənistanın irəli sürdüyü təkliflər sülh müqaviləsinin bağlanması istiqamətində istənilən danışıqları pozur. Əgər, Brüsseldə Ermənistan Baş naziri öz mövqeyindən geri çəkilməsə, Azərbaycan Qarabağda Qisas əməliyyatlarına başlaya bilər. Həmçinin şərti sərhəddə yeni strateji mövqeləri nəzarət altına ala bilər. Ermənistan əlavə alternativi onun yeni strateji ərazilər itirməsi ilə nəticələnəcək".

***Murad İbrahimli***

# "Elə riyaziyyat müəllimləri var ki, çubuqlu bölməni bilmir" - Nazir



***"Elə müəllim var ki, çubuqlu bölməni edə bilmir". "Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev "Sertifikatlaşdırma: peşəkar müəllim-keyfiyyətli təhsil" adlı tədbirdə respublika üzrə sertifikasiya imtahanında yüksək nəticə göstərən müəllimlərlə görüşündə çıxışı zamanı deyib.***

"Bu gün ən ucqar kəndə gedən ibtidai sinif müəllimi də hazırlıqlı müəllimdir. Tam məsuliyyətimlə deyirəm, son 3-4 ildə riyaziyyat müəllimi kimi məktəbə getmiş adamın məktəb riyaziyyatı ilə problemi olmayacaq. Lakin elə müəllim var ki, çubuqlu bölməni edə bilmir. Belə müəllimlərin sayı çox deyil. Söhbət 5-6 faizdən gedir. Bəzi yerlərdə daha çoxdur, bəzi yerlərdə daha azdır", - deyə nazir bildirib.

***Nuranə Abbasova***

# Hikmət Həsənovun köməkçisi "Tərtər işi"nə görə hakim qarşısına çıxarılır



***Yaxın vaxtlarda "Tərtər işi"nə daxil olan yeni bir qrupun işi üzrə daha bir məhkəmə prosesi başlayacaq.***

"Unikal" Musavat.com-a istinadən xəbər verir ki, bu qrupda mühakimə olunanlar sırasında general Hikmət Həsənovun hüquq məsələləri üzrə köməkçisi Fuad Ağayev, eləcə də Cümşüd Qurbanov, Cavid Ağadadaşov, Fuad Axundov yer alıb. Artıq iş üzrə istintaq başa çatıb. Cinayət işinin materialları yaxın günlərdə baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndəriləcək.

Bildirilib ki, hazırda Sumqayıt Məhkəmə Kompleksində Bakı Hərbi Məhkəməsinin hakimləri "Tərtər işi" üzrə 3 ayrı-ayrı qrupun cinayət işinə baxır. Həmin cinayət işlərinə baxılarkən zərərçəkənlərin vəkilləri bir neçə dəfə Hikmət Həsənovun köməkçisi Fuad Ağayevin prosesdə dindirilməsi barəsində vəsatətlə çıxış ediblər. Lakin onların vəsatətləri təmin edilməyib.

Fuad Ağayevin digər qrupların işi üzrə məhkəmə proseslərində dindirilməsinin israrla tələb edilməsi təsadüfi deyil. Çünki bir çox hərbçilər Hikmət Həsənovun ona verdiyi göstərişlər əsasında xidmət yerlərindən işgəncə verilən tikililərə aparılıb, orada dəhşətli işgəncələrə məruz qalıblar. İşgəncələr nəticəsində 11 hərbçi dünyasını dəyişib. "Tərtər işi" üzrə zərərçəkmişlərin ümumi sayı 400 nəfərdən çoxdur.

Fuad Ağayev və digərlərinə qarşı Cinayət Məcəlləsinin 126.3 (qəsdən bədənə ağır xəsarət yetirmə, ehtiyatsızlıqdan ölümə səbəb olduqda), 145 (qanunsuz azadlıqdan məhrum etmə), 293 (işgəncə, qəddar, qeyri-insani, ləyaqəti alçaldan rəftar), 341.2 (vəzifə səlahiyyətlərini aşma)və 341.2.3-cü (vəzifə səlahiyyətlərini aşma, ağır nəticələrə səbəb olduqda)maddələrlə ittiham irəli sürülüb.

Hikmət Həsənovun köməkçisinin adı hazırda Sumqayıt Məhkəmə Kompleksində davam edən general Bəkir Orucov və digərlərinin cinayət işi üzrə keçirilən məhkəmə prosesində işgəncələrə rəhbərlik edənlər sırasında hallanır.

Məsələn, həmin iş üzrə təqirləndirilən şəxslərdən olan Müdafiə Nazirliyinin Hüquq İdarəsinin təhqiqat şöbəsinin baş zabiti, təhqiqatçısı vəzifəsində çalışmış İntiqam Məmmədov Fuad Ağayevin işgəncələrdə iştirakı barədə ifadə verib. O, ifadəsində general Hikmət Həsənovun Fuad Ağayevə xəyanətdə şübhəli bilinən şəxslərlə bağlı səlahiyyət verdiyini deyib.

İntiqam Məmmədov ifadəsinin davamında deyib ki, dindirmə zamanı hərbçilərin döyülməsini, bədənlərinə elektrik cərəyanı verilməsini SAT-ın hərbi qulluqçuları Cəfər Seyidovun nəzarəti altında icra ediblər. Onlara sorğuda hansı sualların verilməsini, ümumilikdə hansı mövzu üzrə dindirilməsini Fuad Ağayev tapşırıb, Hikmət Həsənov da bu məsələlərdə Fuad Ağaveva göstərişlər verməklə ümumi olaraq aparılan dindirmələrə, işgəncə proseslərinə nəzarət edib.

# Prezident bu universitetlə bağlı sərəncam imzaladı



***Prezident İlham Əliyev Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncamda deyilir: "2023-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin fəaliyyətə başlamasının 100 illiyi tamam olur. Dövrün görkəmli ədəbi simalarının və məşhur sənət adamlarının tədrisə cəlb edildiyi Bakı Teatr Məktəbinin bazasında təşkil olunmuş Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ölkənin zəngin ənənələrə malik ali təhsil müəssisələrindəndir. Ötən müddət ərzində Universitet milli mədəniyyətin və incəsənətin tərəqqisi işinə mühüm töhfələr vermişdir. Azərbaycanın tanınmış mədəniyyət və incəsənət xadimləri arasında bu nüfuzlu təhsil ocağının çox sayda məzunu vardır. Universitetin yetirmələri hazırda respublikamızda və onun hüdudlarından kənarda müvəffəqiyyətlə çalışırlar. Fəaliyyətini dövlətin mədəniyyət və təhsil strategiyalarının hədəflərinə uyğun, müasir tələblər səviyyəsində quran Universitet mədəniyyətin və incəsənətin bütün başlıca sahələrini əhatə edən müvafiq ixtisaslar üzrə genişprofilli şəbəkə formalaşdırmış, həmçinin dünyanın bir sıra ölkələrinin ali təhsil və mədəniyyət mərkəzləri ilə qarşılıqlı faydalı tərəfdaşlıq əlaqələri yaratmışdır".

Sərəncama əsasən, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirməli, Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

# Bu şəhərin Baş Planı təsdiqləndi - Əli Əsədovdan qərar



***"Goranboy rayonunun Dəliməmmədli şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiq edilib.***

"Unikal" xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı Qərar imzalayıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000



# Türkiyə ordusu 800 terrorçunu məhv etdi

***Bu il yanvar ayının 1-dən indiyədək Türkiyə Silahlı Qüvvələri Suriya və İraqın şimalında keçirdiyi əməliyyat nəticəsində ümumilikdə 794 terrorçunu məhv edib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilir ki, terrorçular 19-u genişmiqyaslı olmaqla ümumilikdə 320 əməliyyat çərçivəsində zərərsizləşdiriliblər.

# Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıdakı görüşündə bəyanat imzalandı

***Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində iyulun 6-da Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşəbbüsü ilə "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılması" mövzusunda dəyirmi masa keçirilib.***

Dəyirmi masanın yekunlarına dair bəyanat qəbul edilib. Bütün dünyada müstəmləkəçiliyə məruz qalan xalqlara, xüsusilə Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı son fransız müstəmləkələrinə həsr olunmuş bu tədbir bütün maraqlı tərəflərə Fransa dövlətinin müstəmləkəçilik siyasətinin müvafiq ölkələrdə fəsadlarına dair fikir mübadiləsi aparmağa imkan verdi.

Əslində, bütün qitələrdən 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı beynəlxalq hüququn fundamental prinsipləri, eləcə də "Bandunq prinsipləri" və xalqların mənafeyi əsasında müstəmləkəçiliyə qarşı mübarizədə qlobal platforma kimi hələ də müstəmləkə hökmranlığına qarşı mübarizə aparan xalqları dəstəkləmək üçün yeni məqsədlər müəyyənləşdirməyi özünə borc bilib.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşəbbüsü ilə Martinika, Qayana, Yeni Kaledoniya, Fransız Polineziyası, Uollis və Futunanın müstəqillik tərəfdarları Qoşulmama Hərəkatının müstəmləkəçi və neokolonial təcrübələrə qarşı mübarizədə prinsipial mövqeyinin etibarlılığını bir daha təsdiqləyib və vurğulayıblar.




Azərbaycan Respublikasının paytaxtı Bakıda müxtəlif dekolonizasiya hərəkatlarının fikir mübadilələri nəticəsində bu xalqların gələcəyini, hətta uzunmüddətli perspektivdə sağ qalmalarını təhdid edən müstəmləkəçilik siyasətinin zərərli olduğu vurğulandı:

- Qayanada sosial vəziyyət xüsusilə pisləşir, əhalinin 50 faizindən çoxu yoxsulluğun astanasındadır və işsizlik 30 faizdir; təbii sərvətlər talan edilir və torpaqların 90 faizi Fransa dövlətinin şəxsi mülkiyyətindədir.

- Martinika və Qvadelupa iki böyük fəlakətlə üz-üzədir: gizli məskunlaşma strategiyalarının bir hissəsi olan əvəzetmə yolu ilə soyqırımı, təbii ekosistemlərə və əhalinin sağlamlığına ciddi şəkildə təsir edən xərçəngin rekord göstəriciləri ilə xlordekon zəhərlənməsi.

- Yeni Kaledoniyada Kanak və Sosialist Milli Azadlıq Cəbhəsi (FLNKS) 2021-ci ildəki 3-cü referenduma etiraz edir və müstəmləkə altına salınmış Yeni Kaledoniya xalqının müstəqil olmaq hüququnu bir daha təsdiqləyir.

- Polineziya indi tamamilə dekolonizasiya perspektivi ilə məşğuldur və cənab Oskar Temarunun rəhbərlik etdiyi "Tavini huiraatira no te Ao Maohi" partiyası Qoşulmama Hərəkatında müşahidəçi statusu almaq istəyir.

Daha geniş mənada, Afrika Mundus sferasının qeyri-hökumət diplomatik şəbəkəsi tərəfindən dəstəklənən, Bakıda olan anti-müstəmləkəçi hərəkatlar həm afroəsilli insanlara, həm də yerli xalqlara təsir edən müstəmləkə cinayətlərinə görə kompensasiya tələb edirlər.

Onlar dünya ölkələrini, eləcə də beynəlxalq təşkilatları, o cümlədən BMT-ni özlərinin fundamental hüquqlarına hörmətin təmin edilməsinə yönəlmiş addımları dəstəkləməyə çağırırlar.

Onlar xalqlar arasında qlobal əməkdaşlığa, xalqların bərabərliyinə və suverenliyinə hörmətə əsaslanan beynəlxalq münasibətlərə yeni yanaşma formalaşdırmaq məqsədilə xalqlarının tam azad edilməsinə, müstəmləkəçiliyin kökünün kəsilməsinədək mübarizələrini davam etdirməyi və gücləndirməyi öhdələrinə götürürlər.

Tərəflər Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupunun yaradılması barədə razılığa gəliblər və əməkdaşlığı davam etdirməyə hazır olduqlarını bildiriblər.

# Lisey və gimnaziyalara qəbulun nəticələri açıqlandı

***2023-2024-cü tədris ili üzrə 32 təhsil müəssisəsində mərkəzləşdirilmiş qaydada keçirilən lisey və gimnaziyalara qəbul nəticələri elan olunub.***

Bu barədə "Unikal"a Elm və Təhsil Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib. Şagirdlərin elektron yerdəyişməsi üzrə portalda (https://sy.edu.az) şəxsi kabinetlər vasitəsilə nəticələrlə tanış olmaq mümkündür.

Bildirilib ki, şagirdlər seçim etdikləri lisey və ya gimnaziyalara qəbul olduqları təqdirdə şəxsi kabinetlərinə daxil olaraq 17 iyul saat 17:00-dək qəbul olduqları müəssisəni təsdiqləməlidirlər. Qeyd olunan tarixədək müəssisə təsdiqlənmədiyi halda qəbul nəticəsi etibarsız hesab ediləcək.

Lisey, yaxud gimnaziyaya qəbul olan və qəbulu təsdiq edən şagirdlərin sorğuları sistem açılan zaman avtomatik yaradılacaq. Sənəd qəbulu isə avqust ayında həyata keçiriləcək.

Qəbul nəticələri ilə bağlı müraciətləri 11 iyul saat 12:00-dək müvafiq elektron poçt ünvanına (office@arti.edu.az) yönləndirə bilərsiniz.



Qeyd edək ki, 19 925 şagird lisey və gimnaziya seçimi mərhələsində iştirak hüququ qazanıb.



# Rəsmi Moskvadan Laçın dəhlizi ilə bağlı daha bir açıqlama

***"Moskva atəşkəsin pozulması və Laçın dəhlizinin blokadası hallarından çox narahatdır".***

"Unikal" TASS-a istinadən xəbər verir ki, bu sözləri Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə deyib.

"Bu, üçtərəfli razılaşmalara ziddir. Rusiya sülhməramlıları vəziyyətin yerdə necə inkişaf edəcəyinə uyğun və üçtərəfli bəyanatlar çərçivəsində cavab verəcəklər", - o qeyd edib.

# Azərbaycanla Türkiyə arasında daha bir protokol təsdiqləndi

***Milli Məclis "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"nə dəyişiklik haqqında" Protokolun təsdiq edilməsi barədə qanun layihəsini təsdiqləyib***

"Unikal" xəbər verir ki, protokol bu ilin aprel ayının 29-da Türkiyənin Samsun şəhərində bağlanıb.

Protokola əsasən, Azərbaycan və Türkiyə 2020-ci il fevralın 25-də Bakıda səhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"nin qeyd olunmuş mallarla ticarət üçün güzəştlərə əlavə olaraq, bu Protokolda qeyd olunmuş malların ticarətində bir-birinə güzəştlər edəcəklər. Əlavələrdə hər bir mal üçün azaldılmanın tətbiq ediləcəyi baza tarif dərəcəsi və ya əlavə gömrük rüsumu göstərilib. Azərbaycan və Türkiyə arasında Preferensial Ticarət Sazişi çərçivəsində gömrük rüsumlarının qarşılıqlı olaraq azaldılacağı malların sayı artırılır.



Bu, "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"nə dəyişiklik haqqında" Protokolun təsdiq edilməsi barədə" qanun layihəsində əksini tapıb.

Beləliklə, 15 növ kənd təsərrüfatı və digər Azərbaycan və türk mənşəli mallara qarşılıqlı preferensial ticarət rejimi tətbiq edilir (pendir, çay, şəkər, meyvə-tərəvəz çeşidləri və s.). Preferensial Ticarət Sazişinin məqsədi mallar üzrə tariflərin azaldılması və ya ləğv olunması, para-tariflərin və qeyri-tarif maneələrinin ləğv olunması, iqtisadi əlaqələrin harmonik inkişafı vasitəsilə ticarətin genişləndirilməsi və təşviq edilməsi, ədalətli rəqabət üçün əlverişli şərtlərin yaradılması, ticarətin davamlı artımı üçün proqnozlaşdırıla bilən və təhlükəsiz mühitin yaradılmasıdır.

Qeyri-neft ixracının artımı üçün əlverişli şəraitin yaradılması məqsədilə xarici ölkələrlə ticarət əlaqələrinin inkişafı ilə bağlı mütəmadi tədbirlər həyata keçirilir. Bu çərçivədə, ölkəmizin bağladığı və hazırda qüvvədə olan 10 ölkə ilə sərbəst ticarət, habelə bir çox ölkə ilə ikitərəfli ticarət və ya ticarət-iqtisadi əməkdaşlıq sahələrini tənzimləyən sazişlərə əlavə olaraq, Azərbaycan Respublikasının əsas ticarət tərəfdaşlarından biri olan Türkiyə Respublikası ilə də preferensial ticarət Sazişi imzalanıb. Belə ki, 2020-ci il fevralın 25-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi" 2020-ci ilin 31 may tarixində 115-VIQ nömrəli qanunla təsdiq edilib.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişinə dəyişiklik haqqında Protokol 2023-cü il aprelin 29-da Samsun şəhərində imzalanıb. Sənədin icrası qardaş ölkə ilə ticarət dövriyyəsinin artırılması istiqamətində hədəflərin gerçəkləşməsinə töhfə verəcək. Protokola əsasən, Tərəflər əlavələrində qeyd olunmuş mallara ticarət üçün güzəştlərə əlavə olaraq, bu Protokola əlavədə qeyd olunmuş malların ticarətində bir-birinə güzəştlər verəcəklər. Hər bir mal üçün azaldılmanın tətbiq ediləcəyi baza tarif dərəcəsi və ya əlavə rüsumu bu əlavələrdə göstərilib. Əlavələrdə sadalanan 15 növ Türkiyədən Azərbaycana və Azərbaycandan Türkiyəyə idxal ediləcək sənaye və digər mallara preferensial ticarət rejimi çərçivəsində tətbiq ediləcək güzəştlər göstərilir. Buraya spirtli içki növləri, yarımfabrikatlar, karton malları, qablaşdırma və bükmə üçün avadanlıq, müxtəlif növ aparatura və s. kimi mallar aiddir.

Bütövlüklə, Protokol qüvvəyə mindikdən sonra Azərbaycan və Türkiyə arasında tətbiq edilən preferensial ticarət rejimi çərçivəsində ümumilikdə 30 növ kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı, həmçinin sənaye və digər malların güzəştli idxalı və ixracı həyata keçiriləcək. Həmçinin bu Protokol mövcud Sazişin 3-cü maddəsində nəzərdə tutulmuş müddəti Saziş çərçivəsində mallara verilən güzəştlərin qüvvəyə mindiyi tarixdən sonrakı 10 illik müddətə nəzərdə tutulur.

***Anar Kəlbiyev***

# "Bizə münasibət heç də ürəkaçan deyil" - Qüdrət Həsənquliyev

***"Erkin Qədirlinin söylədiyi fikirlər nəzəri məsələdir. Bununla bağlı beynəlxalq təcrübəyə də istinad eləmək olar ki, bəli, konstitusiya məhkəmələri bir çox hallarda konstitusiya və qanunların hansısa normalarının şərhini verə bilirlər, qanunların konstitusiyaya uyğunluğu ilə bağlı rəy verirlər. Amma hazırda qüvvədə olan konstitusiyaya görə, konstitusiyada açıq mətnlə yazılıb ki, Ombudsman məhkəmə aktlarının qanunlara və konstitusiyaya uyğunluğuna dair Konstitusiya Məhkəməsinə sorğu verə bilər. Konstitusiyada belə yazılıb. Bu olduğu kimi də qanuna daxil olmalıdır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin iclasında "Konstitusiya Məhkəməsi haqqında" qanununda dəyişiklik edilməsi ilə bağlı məsələnin müzakirəsi zamanı deputat Qüdrət Həsənquliyev deyib. "Biz bunu dəyişiriksə, bu o deməkdir ki, konstitusiyanı açıq şəkildə pozuruq. Komitə iclasında da çox geniş çıxış etdim və əsaslandırmağa çalışdım, konstitusiyanı da oxudum, amma xeyri olmadı. Birinci oxunuşda da konstitusiyanı oxudum, amma yenə də xeyri olmadı. Ona görə də bunu təkrarlamaq istəmirəm. Mən çıxış yolunu nədə görürəm? Düzü, hər zaman söyləmişəm ki, qanunların xüsusilə parlament və hökumət tərəfindən pozulması vətəndaşlarda qanunlara qarşı hörmətsizlik yaradır. Ona görə də, elə qanunlar qəbul edək ki, onu icra edə biləк. Ola bilsin ki, bir az sərt formada deyirəm, yanaşma bundan ibarətdir", - deputat bildirib.



Q.Həsənquliyev qeyd edib ki, bu yanaşma dəyişilməlidir: "Bir dəfə mən onlayn müşavirə keçiriləndə də söylədim ki, yanaşma dəyişməlidir. Çox təəssüf ki, yanaşma dəyişmir və bu layihəni hazırlayan adamlar özlərini hamıdan ağıllı bilirlər. Parlamentdə yüzlərlə insan var, ağıl-ağıldan üstündür. Ona görə kollegial müzakirələr keçirilir ki, birinin diqqətindən yayınan məsələ başqasının ağlına gəlir. Amma çox təəssüf ki, bizə münasibət heç də ürəkaçan deyil və bu münasibət dəyişməlidir. Açıq şəkildə konstitusiya qanunlarına zidd normaların parlamentə göndərilməsi praktikasına son qoyulmalıdır".



## "Müstəmləkəçilik bəşər tarixinin rüsvayçılıq səhifəsidir" - Hikmət Hacıyev

***"Müstəmləkəçilik bəşər tarixinin rüsvayçılıq səhifəsidir".***

"Unikal" xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tviter səhifəsində yazıb.

"Bakıda keçirilən Qoşulmama Hərəkatının (QH) Əlaqələndirmə Bürosunun Nazirlər Toplantısı çərçivəsində təşkil edilən "Müstəmləkəçilik fotolarda" adlı sərgi. Müstəmləkəçilik, o cümlədən neokolonializm bəşər tarixinin rüsvayçılıq səhifəsidir ", - paylaşımda deyilir.

## "Ali Məhkəmə də digər məhkəmələr kimi yanıla bilir" - Erkin Qədirli

***"Ali Məhkəmə də digər məhkəmələr kimi yanıla bilir. Ona görə də məhkəmə üç pilləlidir ki, mübahisə iştirakçıları yenidən işə baxılması üçün doğru qərar çıxarılmasına nail ola bilsinlər".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin iclasında "Konstitusiya Məhkəməsi haqqında" qanununda dəyişiklik edilməsi ilə bağlı məsələnin müzakirəsi zamanı deputat Erkin Qədirli deyib.

O bildirib ki, hər məhkəmənin, hər instansiyanın öz məhdudiyyəti var: "Ali Məhkəmə onsuz da fakt məsələsini araşdırmır. Konstitusiya Məhkəməsi yalnız konstitusiya ilə bağlı uyğunluq və ziddiyət məsələlərini həll edir. Problem ondadır ki, bizdə indiyə qədər konstitusiyanın əksər maddələrinin rəsmi şərhi yoxdur. Konstitusiya məhkəməsinin qərarlarına baxdıqda əksər hallarda cari qanunvericiliyə şərh verilir".

***Anar***

## Nazir müavini dərman qıtlığının səbəbini açıqladı

***"Dərman qıtlığının əsas səbəblərdən biri beynəlxalq bazarda baş verən qeyri-stabillikdir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında səhiyyə nazirinin müavini Rasim İsmayılov deyib.

Nazir müavini bildirib ki, bəzən istehsalçılar öz öhdəliklərini qismən və ya ümumiyyətlə icra etmir: "Bundan başqa, qüvvədə olan tənzimlənməyə dair qanunvericiliyin günün tələblərinə cavab verməməsi də əsas amillərdəndir. Son zamanlar bu sahədə baş verən stabilləşmə yerli idxalçıların işinə müsbət təsir edir".

O qeyd edib ki, dərmanların qiymətinin Tarif Şurası tərəfindən tənzimlənməsi bu gün ən yaxşı həll yoludur.

# "Makronun daxili siyasətdən xəbəri yoxdur"

## Kamran Bayramov: "Fransanın daxili çaxnaşmaları, cəmiyyətdə olan xaos qalıb kənarda, amma bu ölkənin rəhbəri xaricə səfərlər edir, konsertlərdə əylənir"

***Milli Məclisin Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, deputat Kamran Bayramov "Unikal"a müsahibə verib. O, Bakıda bir sıra ölkələrin XİN rəhbərlərinin iştirakı ilə keçirilən toplantının əhəmiyyətindən, Fransada son baş verən hadisələrdən və başqa məsələlərdən danışıb.***

***-Kamran müəllim, Bakıda Qoşulmama Hərəkatının Koordinasiya Şurasının Nazirlər Toplantısı keçirilib. Növbəti mötəbər tədbirin Azərbaycanda keçirilməsini necə qiymətləndirirsiz?***

-Məlum olduğu kimi, bu günlərdə Bakıda Qoşulmama Hərəkatının Koordinasiya Şurasının Nazirlər Toplantısı keçirilib. Bu, vacib və beynəlxalq miqyaslı tədbir idi. Regionda aparıcı rola malik olan Azərbaycanın son illər dünyada artan nüfuzu onun beynəlxalq təşkilatlarla əlaqələrində və onların fəaliyyətində fəal iştirakına gətirib çıxarıb. Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropa İttifaqı (Aİ), NATO, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və digər nüfuzlu təşkilatlar Azərbaycanla əməkdaşlığa böyük önəm verirlər. Bu gün Azərbaycan bir sıra beynəlxalq qurumlarda sıravi üzv dövlət kimi deyil, bir çox qərarların qəbulunda, icrasında yaxından iştirak edən və təşəbbüskarlıq göstərən dövlətə çevrilib. Xüsusi qeyd etmək lazımdır ki, dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu və parlaq dövrünü yaşayır. Azərbaycan 2019-cu ildən etibarən bu təşkilata sədrlik etməyə başlayıb. Həmin il ölkəmiz Qoşulmama Hərəkatının sammitinə uğurla ev sahibliyi etdi və bu tədbirdə Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanın sədrliyi dövründə əsas istiqamət müəyyənləşdirildi. Bu istiqamət beynəlxalq hüquq və ədalətin müdafiə edilməsindən ibarətdir. Qoşulmama Hərəkatına üzvlükdən qısa müddət sonra Azərbaycanın bu quruma sədrlik etməsi üzv dövlətlərin ölkəmizə olan etimadını və Azərbaycanın beynəlxalq nüfuzunun artmasının, eləcə də ölkəmizin qlobal səylərin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin parlaq örnəyinə çevrildi. Azərbaycanın sədrliyi çox ağır bir dövrə təsadüf etdi. Ona görə ki, dünyanı COVID-19 pandemiyası bürümüşdü. Belə bir şəraitdə, tədbirlərin məhdud sayda keçirilməsinə baxmayaraq, ölkəmiz çevik və səmərəli şəkildə sədrliyi həyata keçirdi. Ölkəmiz sədrliyini də yeni gündəliyə uyğun qurdu. Pandemiyanın misli görünməmiş fəsadları qarşısında dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə Azərbaycan qlobal liderliyi üzərinə götürdü. Bu problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəylik və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən biri oldu. Belə ki, Azərbaycanın sədrliyi altında Qoşulmama Hərəkatının dünya ictimaiyyətini pandemiya ilə mübarizəyə səfərbər etdi. Cənab Prezidentin təşəbbüsü ilə 2022-ci ilin mayında Qoşulmama Hərəkatının COVID-19-la mübarizəyə həsr edilən onlayn sammiti keçirildi. Eyni zamanda, peyvənd millətçiliyi kimi məsələ ortalığa qoyuldu. Bu xəstəliklə mübarizənin gücləndirilməsinin əhəmiyyəti vurğulandı. Azərbaycanın sədrliyinin əsas uğurlarından biri də Qoşulmama Hərəkatının təsisatlanması prosesi idi. Ölkəmizin sədrliyi dövründə bu təşkilatın Parlament Şəbəkəsi yaradıldı, Gənclər Təşkilatı təsis olundu. Bakıda keçirilən son toplantıda Prezident İlham Əliyev çıxışında qeyd etdi ki, bunlarla yanaşı qadın platformasının yaradılması üzərində iş gedir. Bu da Azərbaycanın sədrliyinin yeni bir uğuru olacaq. Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyi bir çox yeniliklər tarixə düşdü. Düşünürəm ki, Azərbaycanın bu təşkilatdakı sədrliyi bundan sonra sədrlik edəcək dövlətlər üçün nümunə və örnək olacaq.



***-Bakıdakı toplantıda çıxış edən Prezident İlham Əliyev Fransada baş verən son hadisələrdən, bu ölkənin polisi tərəfindən öldürülən yeniyetmədən danışıb. Bu məsələ ilə bağlı sizin də fikirlərinizi bilmək istərdik.***

-Cənab Prezident Bakıdakı toplantıda geniş şəkildə çıxış etdi. Həmin çıxışın müəyyən bir hissəsi Fransada baş verən son hadisələrlə, eyni zamanda bu ölkənin neokolonializm siyasətini həyata keçirməsi, onun fəsadları və nəticələri ilə bağlı oldu. Düşünürəm ki, yerində olan bəyanatlar idi. Məlum olduğu kimi, son dövrlər Fransa rəhbərliyi, o cümlədən bu ölkənin qanunvericilik orqanı olan Milli Assambleya və Senat tərəfindən ölkəmizə qarşı müxtəlif əsassız iddialar səsləndirildi, qətnamələr qəbul edildi. Hətta icra və qanunvericilik hakimiyyəti qolları ilə yanaşı yerli hakimiyyət qollarında da sanki Azərbaycana qarşı nifrət var. Bu da onların bəyanatlarında, ifadələrində özünü büruzə verir. Son zamanlar Fransa Prezidentinin ritorikası bu ölkənin Azərbaycana qarşı olan ikili standartlarını daha da gücləndirdi. Bir neçə gün bundan əvvəl Fransa Prezidenti Emmanuel Makron Marsel şəhərində erməni icması ilə görüşü zamanı anti-Azərbaycan bəyanatları səsləndirdi. Hətta Makron guya Azərbaycan Prezidentinə təzyiq göstərilməsi hallarının olduğunu bildirdi. Təbii ki, bu cəfəngiyyat və əsassız məsələlərdir. Fransanın daxili çaxnaşmaları, cəmiyyətdə olan xaos qalıb kənarda, amma bu ölkənin rəhbəri xaricə səfərlər edir, konsertlərdə əylənir. Amma ölkəsində insan hüquqlarının pozulması, beynəlxalq hüquqa ümumiyyətlə tam hörmətsizliyin göstərilməsi halları baş verir. Xüsusilə qeyd etmək istərdim ki, Fransada baş verən bütün bu hadisələrdə məhz bu ölkənin prezidenti Makronun birbaşa rolu var. Bu hadisələrin günahkarı odur və onun yarıtmaz siyasətidir. Bu, Makronun Fransaya rəhbərlik etdiyi dövrdə ilk belə etiraz və iğtişaş deyil. Bundan əvvəl də bir neçə belə iğtişaşlar olub. Bu da onu deməyə əsas verir ki, Makronun daxili siyasətdən xəbəri yoxdur. Onun təşəbbüs etdiyi hər bir layihə, ideya və təklif cəmiyyət tərəfindən çox pis qarşılanır. Əminliklə deyə bilərəm ki, Fransanın 5-ci respublika tarixində Makron ən zəif və cəmiyyətin tam nifrətini qazanan prezidentidir. Fransanın 5-ci respublika tarixində bundan zəif prezident olmayıb. Bu da özünü büruzə verir. Makron nəinki daxili siyasətdə, eyni zamanda Fransanın beynəlxalq arenada nüfuzuna böyük xələl gətirir.

***-Dövlət başçısı Fransanın Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləməsindən də danışıb. Prezident bildirib ki, özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışır...***

-Fransada baş verən hadisələrə baxmayaraq, Makron sakit durmur. Eyni zamanda, ölkəsində baş verən etirazlar, iğtişaşlar, polis zorakılığı, irqçiliyin baş qaldırması fonunda vaxt tapıb xarici ölkələrin daxili işlərinə qarışmağa cəh göstərir. Eyni zamanda, demokratiya, insan hüquqları, beynəlxalq hüquqdan dərs keçməyə çalışır. Bu da sözün düzü dövlət başçısına yaraşmayan hərəkətlərdir. Avropanın ən iri dövlətlərindən biri olan Fransanın prezidenti digər dövlətlərin daxili işlərinə qarışmaqla özünü və ölkəsini hörmətdən salır. Bizim üçün də məlumdur ki, Fransa hansı dövlətdir. 30 ilə yaxın müddətdə keçmiş Dağlıq Qarabağ münaqişəsinin həlli ilə guya məşğul olan Minsk qrupunun həmsədri qismində Fransa öz fəaliyyətsizliyi ilə, anti-Azərbaycan davranışı, ifadələri və bəyanatı ilə yadda qalmışdı. Makron bu siyasəti davam etdirir. Özünü vasitəçi kimi təqdim etməklə yanaşı, əsas üstünlüyü Ermənistan tərəfə verir, sanki onların vəkilinə çevrilib. Makron Ermənistanın təkliflərini, şərtlərini və maraqlarını müdafiə edən dövlətə, şəxsə çevrilib. Burada hansı vasitəçilikdən danışmaq olar? Ümumiyyətlə, Fransa Qarabağ bölgəsində sülhün və əminamanlığın bərqərar olmasına mane olan əsas qüvvələrdən biridir. Bu özünü həm danışıqlar prosesində, həm də münasibətlərin normallaşmasına dair danışıqlarda büruzə verib. Onun yersiz bəyanatları, görüşlərdən sonra onun şərhləri təbii ki, sülhə, əminamanlığa və təhlükəsizliyə xidmət etmir. Bunu özü də başa düşür. Bu məsələ ondan qaynaqlanır ki, Fransa Cənubi Qafqazda müəyyən maraq sahibinə çevrilmək istəyir. Amma bu cəhdlər uğursuzdur. Bunlar Fransanın danışıqlar prosesindən, vasitəçilik rolundan, eyni zamanda Cənubi Qafqazda hər hansı bir real qüvvə olmasından xəbər vermir. Əsas məsələ ondan ibarətdir ki, Fransa öz fəaliyyəti ilə, bu ölkə rəhbərinin ifadələri ilə Cənubi Qafqazda sülhün və təhlükəsizliyin bərqərar olmasına xidmət etmir.

***-Prezident İlham Əliyev çıxışında qeyd etdi ki, əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərksilah edilməlidir. Nə üçün Ermənistan tərəfi Qarabağdakı silahlı qüvvələrinin çıxarılmasını bu qədər uzadır?***

-Sübutlar var ki, bu günə qədər Azərbaycanın Qarabağ bölgəsində hələ də erməni hərbi birləşmələri mövcuddur. Bu, yolverilməzdir. Üçtərəfli bəyanatda ayrıca bənd kimi göstərilib ki, Azərbaycanın əraziləri bu cür elementlərdən təmizlənməlidir. Amma reallıqda tam fərqli mənzərə ilə rastlaşırıq. Belə ki, erməni silahlı qüvvələrinin qalıqları orada qalıb. Bununla yanaşı hərbi təxribatlar törədirlər. Bu cür addımlar sülhün olmasına xidmət etmir, gərginliyi daha da artırır. Dəfələrlə həm cənab Prezident, həm də ölkəmizin digər rəsmi şəxsləri regionda sülhün bərqərar olması üçün əsas şərtlərdən biri kimi məhz Ermənistan silahlı qüvvələrinin və birləşmələrinin Azərbaycan ərazilərini tərk etməsini bildiriblər. Amma bu tələbə əməl olunmadığını görürük. Azərbaycanın da səbri tükənməz deyil. Müəyyən cavab tədbirləri görülüb, əməliyyatlar keçirilib. Əgər bu cür vəziyyət davam edərsə, Azərbaycan müvafiq əməliyyatları başlatmaq hüququnu özündə saxlayır. Qeyd olunan birləşmələrin Azərbaycan ərazilərində mövcudluğu Ermənistana sərf edir. Onlar danışıqlar prosesinin qeyri-müəyyən müddətə uzadılmasına çalışırlar. Azərbaycan dəfələrlə mövqeyini bildirib ki, ərazimizdə heç bir digər dövlətin hərbi birləşmələrinin mövcudluğuna yol verilməyəcək. Azərbaycan Ermənistandan fərqli olaraq öz müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə hörmət edir. Azərbaycanın bu cür siyasəti, son həyata keçirdiyi əməliyyatlar onu deməyə əsas verir ki, tezliklə Ermənistan istəsə də, istəməsə də onların hərbi birləşmələri, yarımhərbi elementləri Azərbaycan ərazisindən təmizlənəcək. Azərbaycan Ordusu yüksək döyüş qabiliyyətinə malik olmaqla ölkəmizin ərazisində mövcud olan istənilən bu cür ünsürləri məhv etməyə və ərazimizdən çıxarmağa hazırdır.

***Anar Kəlbiyev***

# Elman Rüstəmovun bankına şok...

## DSMF "Bank Respublika"nı niyə məhkəməyə verib?



***Bu günlərdə məlumat yayıldı ki, "Bank Respublika" dövlət qurumu tərəfindən məhkəməyə verilib. Bankla bağlı məhkəməyə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu (DSMF) müraciət edib (Hit.az).***

Məlumata görə, DSMF tərəfindən "Bank Respublika" qarşısında mülkiyyət hüququ ilə əlaqədar mübahisəli məsələ qaldırılıb. İşə Bakı Şəhəri Səbail Rayon Məhkəməsinin hakimi Mədinə Bağırovanın sədrliyi ilə baxılacaq.

Qeyd edək ki, 2019-cu ildən "Bank Respublika"nın İdarə Heyətinin sədri Tariyel İsmayılovdur.

Xatırladaq ki, mətbuat uzun illərdir adıçəkilən bankın sabiq baş bankir Elman Rüstəmova qeyri-rəsmi bağlılığı barədə yazır. İndiyədək bu iddialar yalnız bir dəfə rəsmi şəkildə təkzib edilib. Belə ki, 2017-ci ildə "Bank Respublika" ASC-nin sahibi Natiq Quliyev yerli mediaya açıqlamasında bildirib ki, adıçəkilən bank yalnız rəsmi hesabatlarda qeyd olunan səhmdarlara məxsusdur. Sitat: "Bu hesabatlardan göründüyü kimi, mənim əsas tərəfdaşlarım Almaniyanın iki tanınmış maliyyə institutlarıdır. Bunlardan biri, KfW (Almaniyanın Dövlət Bankı) bank qrupunun üzvü DEG İnvestisiya Şirkəti, digəri isə Sparkassen-Finanzgruppe maliyyə qrupunun üzvü Sparkassen International Development Trust".

Bununla belə, N.Quliyev həmin vaxt Mərkəzi Bankın ozamankı sədri ilə yaxınlığını gizlətməmişdi. Qeyd eləmişdi ki, Elman Rüstəmovla uzun illərdir peşəkar münasibətləri mövcuddur: "Məni sevindirir ki, "Bank Respublika" o qədər cəlbedicidir ki, onun adını belə tanınmış şəxslərlə əlaqələdirirlər".

ASC sahibi daha sonra əlavə eləmişdi ki, Elman Rüstəmov onun çox hörmət etdiyi şəxs və peşəkar dövlət xadimlərindən biridir. "Elman müəllimlə, hər bir bank səhmdarı kimi, uzun illər ərzində çox səmimi peşəkar münasibətlərimiz yaranıb" - N.Quliyev vurğulamışdı.

Lakin bu açıqlamadan sonra da "Bank Respublika"nın sabiq baş bankirlə bağlılığına dair iddialar səngiməmişdi. Məsələn, 2022-ci ildə, keçmiş baş bankir hələ vəzifədən yenicə azad edildikdən sonra Multimedia Mərkəzinin rəhbəri, tanınmış ekspert Osman Gündüz ilginc fikirlər səsləndirmişdi. O demişdi ki, qonşu ölkələrin təcrübəsinə baxanda rəqəmsal bankçılıq baxımından Rüstəmovun rəhbəri olduğu Mərkəzi Bank geridə qalır. Sitat: "Rəqəmsal bankçılıqda uzun illər davam edən problemlərin çox hissəsi həll edilməyib. Açıq bankçılığa, APİ üzərindən bank servislərinin tətbiqinə uzun illərdi ki, imkan yaradılmayıb. Son illərdə isə yalnız Elman Rüstəmova məxsusluğu bildirilən "Bank Respublika"ya bu istiqamətdə hansısa addımlar atmağa icazə verilib...."

Bundan əvvəl - 2019-cu ildə isə yerli mediada məlumat yayılmışdı ki, "Bank Respublika" ASC-nin əsas səhmdarlarından olan Natiq Quliyev öz qardaşları Elçin və Namiq Quliyevlə birlikdə Elman Rüstəmovun Azərbaycanda müxtəlif sahələrə aid biznesini idarə edirlər . Bura Rüstəmova aid bəzi maşın salonları, restoranlar, şadlıq evləri, quşçuluq təsərrüfatı və sair aiddir.

"Məsələn, Rüstəmova məxsus olduğu deyilən "Səba Broyler" şirkətinin rəhbəri Namiq Quliyev "Bank Respublika"nın prezidenti Natiq Quliyevin qardaşıdır. Bundan əlavə , "Planet" şadlıq sarayının, "Subaru", "Bakı İnvest Holdinq"in, "Bakı Sığorta", "Honda", "Mitsubishi", "Bakı taksi"nin Rüstəmovun biznes şəbəkəsinə daxil olması, Quliyev qardaşları tərəfindən idarə olunmasına dair məlumatlar yayılıb" - deyə həmin vaxt ölkənin tanınmış KİV-ləri yazırdılar. Lakin bu yazılanlar qarşı tərəfdən təsdiqlənməsə də, təkzib də edilmədi.

İndi isə "Bank Respublika"nın bir dövlət qurumu tərəfindən məhkəməyə verilməsi həmin söyləntiləri yenidən aktuallaşdırıb. Bəzi fərziyyələrə görə, 1992-ci ildən fəaliyyət göstərən bu ASC-yə qarşı 31 illik tarixində ilk dəfədir hansısa dövlət qurumu tərəfindən məhkəmə iddiası qaldırılır. "Ən azından "Bank Respublika" Rüstəmovun qeyri-rəsmi himayəsinə keçdikdən sonra oxşar hala rast gəlinməyib. Təsadüfi deyil ki, bu hal Elman müəllim Mərkəzi Bank sədrliyindən uzaqlaşdırıldıqdan sonra yaşanır" deyə bir çoxları vurğulayırlar.

Xatırladaq ki, E.Rüstəmov 1995-ci ilin yanvarından 2022-ci ilin aprelinədək, düz 27 ildən artıq müddətdə ölkənin baş bankına rəhbərlik edib. O, bu postdan kənarlaşdırıldıqdan sonra Baş nazirin müşaviri vəzifəsinə gətirilib və hazırda da həmin vəzifədə çalışır.

71 yaşlı sabiq baş bankirin adı daim KİV-də ölkənin iri biznesə sahib məmurları siyahısında çəkilib.

***Sənan Mirzə***

# Səfərbərlik xidmətinin rüşvət alan əməkdaşları ilə bağlı qərar verildi




***Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Cəlilabad rayon şöbəsi və Laçın rayon bölməsinin vəzifəli şəxslərinin qanunsuz əməlləri ifşa edilib.***

"Unikal" xəbər verir ki, əməliyyat-istintaq tədbirləri ilə SHXÇDX-nin Cəlilabad rayon şöbəsinin müfəttişi Ramil Həsənov və Laçın rayon bölməsinin müfəttişi Rəşad Rəşidlinin işlədikləri tabe qurumların çağırış və hərbi-həkim komissiyalarının vəzifəli şəxslərinin qərarlarına təsir imkanlarından istifadə edərək vətəndaşların hərbi xidmətə yararsız hesab edilməsinə nail olmaq üçün ayrı-ayrı şəxslərdən müxtəlif məbləğlərdə pul vəsaitləri almalarına əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı başlanmış cinayət işləri üzrə toplanmış sübutlar əsasında Ramil Həsənov və Rəşad Rəşidli Cinayət Məcəlləsinin 312-1-ci (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə-nüfuz alveri) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, məhkəmənin qərarı ilə vəzifədən kənarlaşdırılmaqla barələrində polisin nəzarəti altına vermə növündə qətimkan tədbiri seçilib.

Qanunazidd hərəkətlərə yol vermiş digər şəxslərin dairəsinin müəyyən edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# "Bu problemi nazirlik tək həll edə bilməz" - Emin Əmrullayev



***"Biz savadsızlığa qarşı total reaksiya vermirik".***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev iyulun 6-da "Sertifikatlaşdırma: Peşəkar müəllim-keyfiyyətli təhsil" mövzusunda keçirilən tədbirdə deyib.

O bildirib ki, bu problemi nazirlik tək həll edə bilməz: "Burada cəmiyyətin məsələyə münasibətləri köklü şəkildə dəyişməlidir. Dəyişməsə təhsil prosesində də keyfiyyəti tam mənası ilə yüksəltmək mümkün olmayacaq".

E.Əmrullayev vurğulayıb ki, orden və medalların dəqiq mənası göstərilməlidir: "Çünki bir müəllimin medal və ya orden alması digər müəllimə haqsızlıq ola bilər.

Nə qədər ki, insanlar saxta diploma hörmətlə yanaşacaq, təhsilimiz inkişaf etməyəcək. Saxta diplom alanlara hörmət etmək lazım deyil. Saxta diplomlu şəxslərin artması təhsilimizin inkişafına mane olur",- deyə nazir bildirib.

# "Makron özünü Rəhim Qazıyev kimi aparır " - Siyavuş Novruzov



***"Makron erməni diasporası ilə görüşdə çox utanmazcasına "Ermənistanın baş nazirindən daha çox Azərbaycana təsir göstərirəm" ifadəsini işlədib".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Siyavuş Novruzov deyib.

"Bu ifadəni işlədən biri ədalətli sülhə nail ola bilər?! Təbii ki, yox. Özünü həmişə yuyulmamış çömçə kimi ortaya atır. Vaxtı ilə nə iclas keçirilirdi, Rəhim Qazıyev də özünü ortaya atırdı. Həmin xarakter Makronda da var. Hara gedir, ancaq ermənilər böyründə çıxır. Ermənistanı istəyirsənsə, apar Fransaya birləşdir. İmkan verin ki, özümüz aramızda məsələlərimizi həll edək. Ədalətli sülhün bağlanmasına Fransa imkan vermir. Daha bilmirlər ki, ədalətli sülhün olmaması birbaşa Ermənistanın özünə ziyandır. Ən çətin vəziyyətdə yaşayan da ermənilərdir. Ondan-bundan yardım alıb yaşamaq olmaz. Bizim Xarici İşlər Nazirliyi qəti şərt qoymalıdır ki, Fransa sülh məsələsinə qarışmamalıdır", - deyə deputat bildirib.

***Anar Kəlbiyev***

# "Makron erməni faşizminin əsas himayədarlarından biridir" - Vahid Əhmədov



***"Fransada Əlcəzair əsilli 17 yaşlı yeniyetmənin polis tərəfindən qətlə yetirilməsi ilə başlayan etiraz dalğası bu ölkədə böyük qarşıdurmaya səbəb olmuşdu. Bu hadisə Fransada fərqli millətlərə qraşı etnik nifrətin və dözümsüzlüyün pik həddə çatdığını göstərir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Vahid Əhmədov deyib. O bildirib ki, Afrika ölkələrində törətdiyi qətliamlara baxmayaraq, özünü demokratiya və insan haqlarının dahiləri kimi təqdim edən dövlətin öz xalqı ilə bu cür rəftarı Makron hökumətinin simasını nümayiş etdirir: "Makronun hakimiyyətə gəlişindən sonra bu kimi halların artması onun ikiüzlü siyasətindən xəbər verir. 44 günlük Vətən müharibəsi dövründə, eləcə də ondan sonrakı müddətdə Ermənistana dəstəyi əsirgəməyən, işğalçı dövlətə həmrəylik nümayiş etdirən Makron, bu gün də erməni faşizminin əsas himayədarlarından biridir. Makron hökuməti erməni diasporunun sifarişi ilə Azərbaycan əleyhinə çıxışlar edərək danışıqlar prosesinə ədalətli mövqe əks etdirmir. Hazırda Fransada baş verənlərlə bağlı bütün dünya bu ölkənin əhalisinə açıq dəstəyini bildirməlidir. Azərbaycan bununla bağlı qəti mövqeyini ortaya qoydu. Fransa dövləti bu cür aksiyalardan nəticə çıxarmalı, dünya ictimaiyyətində olan demokratiyanı öz ölkəsində tətbiq etməlidir".

***Anar Kəlbiyev***

# Mərkəzi Bankın iqtisadi müstəqilliyi artırılır

***Azərbaycan Mərkəzi Bankının iqtisadi müstəqilliyi artırılır.***




"Unikal" xəbər verir ki, bu, Milli Məclisin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" qanuna təklif edilən dəyişikliklərdə əksini tapıb.

Azərbaycan Respublikasının Konstitusiyası və qanunları müəyyən edilmiş funksiya və səlahiyyətlərini həyata keçirərkən Mərkəzi Bank müstəqildir və u zaman hər hansı dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslər onun fəaliyyətinə hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhdudiyyət qoya bilməz, qanuna zidd təsir və müdaxilə edə bilməz. Layihəyə əsasən, artıq qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, hər hansı dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslər Mərkəzi Bankın fəaliyyəti üzərində monitorinq də həyata keçirə bilməz.

Təklif edilən 6.2-ci maddəyə əsasən isə Mərkəzi Bank iqtisadi müstəqilliyə malikdir və aktivlərinin satışından və ya onlara digər tərzdə sərəncam verilməsindən daxil olan vəsaitlər onun gəlirlərinə aid edilir. Bu Qanunun 14-cü maddəsində nəzərdə tutulmuş hal (Mərkəzi Bank müflis elan oluna bilməz. Mərkəzi Bankın fəaliyyəti nəticəsində yaranmış kapital çatışmazlığı bir maliyyə ili təxirə salınmaqla dövlətin buraxdığı qiymətli kağızlar hesabına ödənilir) istisna olmaqla, Mərkəzi Bank dövlətin öhdəlikləri, dövlət isə Mərkəzi Bankın öhdəlikləri üçün cavabdeh deyil.

Müzakirələrdən sonra dəyişikliklər səsverməyə qoyularaq III oxunuşda qəbul edilib.

# "Hərbi doktrinamıza dəyişiklik etmək lazımdır" - Deputat

***"Azərbaycan Respublikasının Hərbi doktrinasına dəyişiklik etmək lazımdır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Elşad Mirbəşir oğlu deyib.

O bildirib ki, Azərbaycanın hərbi təhlükəsizliyinə olan təhdidlərin xarakteri dəyişib: "Bu, Azərbaycanın iradəsi və gücü sayəsində dəyişdi. Azərbaycan Cənubi Qafqaz regionunda regional təhlükəsizlik sisteminin qurulması missiyasını öz üzərinə götürüb. Azərbaycan Respublikasının Hərbi doktrinasında bu məqamın ayrıca göstərilməsi vacib olardı".

***Anar***

# Səlim Müslümovun ailə biznesində böyük çöküş

## Sabiq nazirin övladlarının adlarına olan şirkətlər niyə "batır"? - Təfərrüat...

***Yola salmaq üzrə olduğumuz həftə məlumat yayılıb ki, sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun oğlu Turqay Müslümovun biznesi çökür.***

Məlumatda qeyd edilib ki, "Orion Global" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) hazırda İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinə 82 min 551 manat 91 qəpik vergi borcu yaranıb. Belə ki, şirkətin tabeçiliyində fəaliyyət göstərən məşhur "Orion Palace" restoranında aparılan vergi yoxlamaları zamanı həmin məbləğdə vergi borcu aşkarlanıb. Restoran Səlim Müslümovun biznesində əhəmiyyətli yer tutur və sözügedən şirkət üzərindən idarə olunur (Qaynarinfo).

Bundan başqa, Turqay Müslümovun adına olan "Orion Construction" və "Orion Cars" MMC-lər də müflis olmaq ərəfəsindədir. Qardaşı Asim Müslümlünün adına olan "Orion Creative Solutions" MMC də eyni vəziyyətdədir.

"Unikal"ın araşdırmasına görə, Turqay Müslümovun yaşadığı ünvanda - Binəqədi rayonu, Ziya Bünyadov , ev 7a-da vaxtilə 4 şirkət hüquqi qeydiyyata alınıb. Onlardan biri - "Orion Global" Məhdud Məsuliyyətli Cəmiyyəti əsasən xidmət sahəsini əhatə edir. Yuxarıda da adı çəkilən dəbdəbəli "Orion Palace" bu şirkət üzərindən idarə olunur.

"Orion Construction" Məhdud Məsuliyyətli Cəmiyyəti tikinti sahəsində fəaliyyət göstərir.

"Orion Cars" Məhdud Məsuliyyətli Cəmiyyəti şəhərin müxtəlif səmtlərində bahalı və VİP salonlu avtomobillərin icarəsi ilə məşğuldur.

"Orion Creative Solutions" Məhdud Məsuliyyətli Cəmiyyəti də əvvəlcə Turqay Müslümlünün adına qeydiyyatdan keçirilsə də, sonradan Səlim Müslümovun digər oğlu Asim Müslümlünün adına rəsmiləşdirilib.

Yeri gəlmişkən, sabiq nazirə məxsus daha bir şirkət var - "Formes.Group.Az" MMC. Bu şirkət 2016-cı ildən fəaliyyət göstərir. Nizamnamə kapitalı 10 manatdır. Şirkətin qanuni təmsilçisi isə Türkiyə vətəndaşı Mesut Şendir.

"Formes.Group.Az" daha əvvəl "Aqrotexservis" MMC adı altında fəaliyyət göstərib. Sonradan Mesut Şenin idarəçiliyinə verilib. Adı da elə bu zaman dəyişdirilib. Lakin Müslümovun himayəsi altında fəaliyyətini davam etdirib. Sabiq nazirin həbsinin ardından fəaliyyət göstərib-göstərmədiyinə dair bilgi yoxdur.

"Unikal" onu da xatırladır ki, Səlim Müslümov 2021-ci ilin fevralında Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən saxlanılıb. O, Dövlət Sosial Müdafiə Fondunun sədri (2002 - 2013) və nazir (2013 - 2018) işlədiyi dövrlərdə inanılmaz sərvətə yiyələnib. Hətta bəzi qaynaqlar Müslümovun sahib olduğu daşınan və daşınmaz əmlakları, var-dövləti ümumilikdə 1 milyard manatdan çox qiymətləndirib.



DTX tərəfindən saxlanıldıqdan sonra isə eks-nazir 27 milyon manatlıq rüşvətalma, mənimsəmə və israfetmə əməllərinə görə ittiham olunur. O həmin puldan 20 milyon manatını istintaq dövründə ödəyib. 8 milyon manatlıq əmlakı üzərinə isə həbs qoyulub.

Həmin əmlaklar bunlardır:

1. Bakı şəhəri, Binəqədi rayonu, Akademik Ziya Bünyadov pr. ev 13v, mənzil 38
2. Bakı şəhəri, Binəqədi rayonu, Akademik Ziya Bünyadov prospekti 7a, mənzil 3
3. Bakı şəhəri, Səbail rayonu, Azadlıq prospekti 5 ünvanda yerləşən qeyri-yaşayış sahəsi
4. Bakı şəhəri, Yasamal rayonu, Mirzə İbrahimov küçəsi, 422 məhəllə, ev 53, mənzil 108
5. Bakı şəhəri, Nərimanov rayonu, Oqtay Kərimov küçəsi, ev 69 və 71
6. Bakı şəhəri, Nərimanov rayonu, Məmməd Araz küçəsi, ev 51
7. Bakı şəhəri, Binəqədi rayonu, 6-ci mikrorayonun qərb hissəsində yerləşən 500 və 300 kvadratmetr torpaq sahələri
8. Bakı şəhəri, Xətai rayonu, Rəsul Rza küçəsi, məhəllə 2942 ünvanda yerləşən 300 kvadratmetr olan qeyri yaşayış sahəsi.

Lakin cəmiyyət və media əmindir ki, Səlim Müslümovun əmlaklarının siyahısı daha genişdir. Eyni zamanda eks-nazirin ictimaiyyətə məlum olmayan əmlaklarının bir hissəsinin hələ nazir vəzifəsindən kənarlaşdırıldıqdan sonra onun əlindən alındığına dair də iddialar dolaşır.

Onu da deyək ki, səhhəti ilə bağlı hazırda ev dustaqlığına buraxılmış Səlim Müslümovun məhkəmə prosesi Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Faiq Qəniyevin sədrliyi ilə davam etdirilir.

"Unikal"ın araşdırması zamanı o da aydınlaşıb ki, sabiq nazirin övladlarının adına olan şirkətlərin müflisləşmək həddinə çatması məhz Müslümovun 20 milyon manatı ödəməsindən sonra başlayıb. Lakin bəzi mənbələr bunu ya tam təsadüf, ya da "bilərəkdən hazırlanmış tamaşa" kimi qiymətləndirirlər. Hesab edirlər ki, eks-nazir ailə şirkətlərinin çətin durumda olduğuna dair görüntü yaratmaqla maddi baxımdan yaxşı durumda olmadığını nümayiş etdirməyə çalışır. Məqsəd isə aydındır - əldə-ovucda qalan sərvəti qoruyub-saxlamaq, onun əldən çıxmasına mane olmaq!

***Toğrul Əliyev***

# Xəzəri hasarlayan məmurlarla bağlı yeni iddialar

## Həftənin sualı: bəzi sahil ərazilərindəki qanunsuz tikililər niyə hələ də sökülməyib?

***Ötən il iyun ayının 13-də Buzovna sakinləri tarixi qayaların zəbt edilməsiylə bağlı Prezidentə müraciət ünvanladılar. Onlar Xəzər sahilinin qısa müddətdə hasarlandığını və qayaların üzərində yeni tikililərin ucaldıldığını bildirdilər. Sakinlər dənizin yaxınlığında 20-50 metrlik zolağı özəlləşdirib ictimai istifadə üçün bağlamağın qanun pozuntusu olduğunu vurğulayaraq ölkə başçısının məsələyə müdaxilə etməsini xahiş etdilər.***

Prezident bu hadisədən bir neçə gün sonra Xəzər dənizinin sahilboyu ərazilərinin qanunvericiliyin tələblərinə uyğun olaraq bərpa edilməsi və insanların dəniz sahilinə sərbəst giriş-çıxışının təmin edilməsi ilə bağlı Sərəncam verdi.



Ardınca isə məlumat yayıldı ki, Buzovnada dəniz sahilindəki qanunsuz hasar və tikililər sökülür.Həmin məlumat Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən təsdiqləndi. Qurumdan bildirildi ki, dəniz sahili ərazilərdəki vəziyyətlə bağlı Buzovna sakinlərinin müraciətləri ilə əlaqədar bu ərazilərdə aparılan inventarizasiya zamanı müəyyən edilib ki, vaxtı ilə, 10-15 il əvvəl burada bəzi insanlar tərəfindən dəniz kənarlarının hasarlanması, sahilə keçidlərin bağlanması, həmçinin qədim qayalıqların zibillənməsi hallarına yol verilib ki, bu da haqlı narazılıqlara səbəb olur. Bəzi yerlərdə sakinlər qanunsuz olaraq əlavə torpaq sahələrini zəbt edərək öz həyətlərinə birləşdiriblər. Həm də dənizin geri çəkilməsi ilə əlaqədar sahilyanı ərazilər genişlənib.

Həmin vaxt yayılan video və foto görüntülərdən də aydın olurdu ki, qeyd edilən qanunsuzluqların aradan qaldırılması, eləcə də ölkə başçısı cənab İlham Əliyevin Xəzər dənizinin sahilboyu ərazilərinin qanunvericiliyin tələblərinə uyğun olaraq bərpa edilməsi və insanların dəniz sahilinə sərbəst giriş-çıxışının təmin edilməsi ilə bağlı müvafiq Sərəncamının icrası məqsədi ilə Bakı Şəhər və Xəzər Rayon İcra Hakimiyyətlərinin, kommunal qurumların texnikaları və işçiləri tərəfindən Buzovna qəsəbəsində sahilyanı ərazilərdəki qanunsuzluqların aradan qaldırılmasına başlanılıb. Zəbt edilən torpaq sahələrinin hasarları, ərazidə bəzi sənədsiz tikililər, çimərlik ərazisinə daxil olmağa mane olan sədlər sökülür. Həmçinin kommunal xidmətlərin işçiləri tərəfindən qayalıq ərazilərinin müxtəlif tullantılardan təmizlənməsinə başlanılıb.

O da vurğulanırdı ki, təmizlənən torpaq sahələri çimərlik ərazilərinə birləşdiriləcək və əraziyə nəzarət artırılacaq.

Lakin maraqlıdır ki, yayın gəlişi, çimərlik mövsümünün başlaması ilə əlaqədar olaraq son günlər Bakıətrafı kənd və qəsəbələrdə yaşayan vətəndaşların Xəzərə sərbəst çıxışına mane olan hasarlamalar barədə yeni şikayətlərə rastlanmaqdadır. Belə ki, bir sıra dənizkənarı ərazilərdə qanunsuz tikililər və hasarlar öz mövcudluğunu hələ də qoruyub saxlayır. Onlara Novxanıda, Türkanda, Pirşağıda, Qaradağda və s. xüsusilə daha çox rast gəlindiyi deyilir.

İddialar belədir ki, Xəzər sahilində qanunsuz olaraq müxtəlif obyektlər - restoran, kafe, otel və pullu çimərliklər yaradan, eyni zamanda mülklər inşa etdirən bəzi məmurların müxtəlif yollarla bu tikililərin, obyektlərin sökülməsinin qarşısını aldıqları iddia olunur.

Məsələn, hələ Buzovnada söküntülər başladıqdan bir müddət sonra media yazırdı ki, Bakının cənub istiqamətindən girişində dəniz Səngəçaldan başlayaraq, Bayıla qədər hasarlanıb. Bakıya gələn-gedən insanlar dəniz mənzərəsini seyr etmək əvəzinə hasarlara və onların arxasında inşa olunmuş, illərdir qapısı bağlı qalan, əksəriyyətində yaşayış olmayan yöndəmsiz tikililərə tamaşa edirlər. O tikililərin bir çoxu indiki və keçmiş məmurların, icra başçılarının, zəngin zümrənin villalarıdır. Korrupsioner məmurlara məxsus olan həmin villaların çoxunda ancaq gözətçilər ömür-gün sürürlər. Zəngin məmurların əksəriyyətinin Xəzər sahillərində bir neçə villaları, malikanələri olduğu üçün Qaradağ sahilini bəyənib, oradakı evlərində qalmır, sahilə sıfır məsafədə olsa da, orada dənizin çirkli olması səbəbindən, dənizə də girmirlər. Sadəcə, ərazini hasarlayıb, mülk tikdirib, Xəzər sahilini zəbt ediblər. "Buzovnada dənizin sahilini, qayalıqları hasarlayanlar cəzalandırıldı, sədlər artıq sökülür. Eyni proses Şıxovda, Qaradağ sahillərində də başlamalıdır" deyə yerli media yazırdı. Lakin Bakıya sözügedən istiqamətdən daxil olanlar hələ də eyni mənzərənin şahidləridirlər. Bir sözlə, Buzovnadakı söküntüdən sonra yaranan ümid - Xəzərin digər sahillərində də oxşar "təmizləmənin" aparılacağına dair gözləntilər özünü doğrultmadı. Əksəriyyətin qənaəti bundan ibarətdir ki, səbəb həmin sahillərdəki mülk, obyekt sahibi olan məmurların müqavimətidir.

İnanaq ki, əlaqədar qurumlar Xəzər dənizinin hasarlanmasına, bir növ, kimlər tərəfindənsə "mənimsənilməsinə" gətirib çıxaran bütün neqativ halları araşdıracaq, axırıncı qanunsuz tikili, hasar sökülünədək prosesi davam etdirəcəklər...

***Sənan Mirzə***

# "Dərmanların keyfiyyəti ilə bağlı problem var" - Komitə sədri



***"Bəli, bu gün də ölkədə dərman vasitələrinin qiymətinin baha olması və keyfiyyəti ilə bağlı problem var".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov deyib.

"Nə qədər ki, ölkədə əhalinin istifadə etdiyi əsas dərmanları xarici ölkədən idxal edəcəyik, o vaxta kimi problem qalacaq. Sadalanan bütün problemlər ölkədə dərman istehsalının olmaması ilə bağlıdır", - komitə sədri bildirib.

***Anar Kəlbiyev***

# Niyə Ebru Gündeş, Elza Seyidcahan müzakirə edilir? - Deputatdan etiraz



***Bu gün Azərbaycanda cəmiyyət müğənninin (Elza Seyidcahan-red) AYB-yə üzv olmağını, Söyüdlü hadisələrini, şəmkirli iş adamının 250 min dollara müğənni (Ebru Gündeş-red) gətirməyini müzakirə edir?***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin növbədənkənar sessiyasının iclasında deputat Fazil Mustafa bildirib.

Deputat ciddi məsələlərin müzakirə olunmamasından şikayətlənib. "Düşünürəm ki, biz ciddi məsələləri müzakirəyə çıxarmırıq. Təhsil naziri ötən dəfə dərslərin sentybarın 1-dən başlaması ilə bağlı təklif irəli sürdü. Ciddi məsələ idi, amma müzakirələr dayandı. Bunun səbəbələrini müzakirə etmək lazımıdır. Böyük Britaniyanın "World University Ranking" nəşri 2023-cü ildə dünyanın ən yaxşı universitetlərinin reytinqini dərc edib. Reytinqə Qazaxıstanın 9 şəhərindən 21 universitet (2022-ci ildə - 16 universitet) daxil olub. Bu, ciddi düşünüləsi məsələdir. Digər tərəfdən müzakirə olunmalı məsələlərdən biri də blokadada olan Naxçıvana bilet məsələsidir. Bunun səbəbi birbaşa korrupsiya ilə bağlıdır. Gürcüstandan İstanbula 100 manatdır, Azərbaycandan 700 manat. Onlar biletlərin üstündən pul tuturlar. Naxçıvana bilet çox satanda, təyyarə ayıranda üstündə 20 manat pul tutur, İstanbula 300 manat. Ona görə də Naxçıvana təyyarə ayırmır. Bu məsələlər müzakirə edilməlidir", - deyə Fazil Mustafa şikayətlərini dilə gətirib.

# Müstəqil ekspertlərin reyestri aparılacaq




***Azərbaycanda müstəqil ekspertlərin reyestri aparılacaq.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Sığorta fəaliyyəti haqqında" qanuna əlavə edilməsi təklif edilən yeni fəsil - 11-1. "Müstəqil ekspertlər" fəslində əksini tapıb.

Layihəyə əsasən, müstəqil ekspertlərin reyestri sahələr üzrə qanuna uyğun olaraq aparılır.

Fiziki şəxs müstəqil ekspert sertifikatında göstərilən sahə (sahələr), hüquqi şəxs isə onun əmək müqaviləsi əsasında işlədiyi müstəqil ekspertlərin müstəqil ekspert sertifikatında göstərilən sahə (sahələr) üzrə müstəqil ekspertlərin reyestrinə daxil edilir.

Layihəyə əsasən, fiziki və hüquqi şəxslərin müvafiq hallarda müstəqil ekspertlərin reyestrindən çıxarılması da nəzərdə tutulur.

Bundan başqa, layihədə fiziki şəxslərin sığorta sahəsində müstəqil ekspert sertifikatı almaq üçün imtahan verməsi əksini tapıb.

Qanun layihəsi səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edilib.



# Magistraturaya ixtisaslaşma seçimi başlayır

***Ali təhsil müəssisələrinin magistratura səviyyəsinə ixtisaslaşma seçimi başlanır.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən (DİM) məlumat verilib. Bildirilib ki, 2023/2024-cü tədris ili üzrə ali təhsil müəssisələrinin magistraturalarına qəbul olmaq üçün ixtisaslaşma seçimi 2023-cü il iyulun 6-dan 13-dək aparılacaq.

İxtisaslaşma seçiminə magistraturaya fevralın 19-da və iyunun 11-də keçirilmiş qəbul imtahanının birinci və ya ikinci cəhdinin (bəzi proqramlar üzrə həmçinin qabiliyyət imtahanının) nəticələrinə əsasən müəyyən edilmiş minimal tələbləri ödəyən və ixtisaslaşma seçimində iştirak etmək hüququ qazanan bakalavrlar buraxılırlar.

Həmin bakalavrlar 2023-cü il iyulun 6-dan iyulun 13-dək (saat 23:59-dək) ali təhsil müəssisələrinin magistraturalarına qəbul aparılan ixtisaslaşmaların müsabiqəsində iştirak etmək üçün internet vasitəsilə ixtisaslaşma seçimini aparmalıdırlar. Bakalavrlar öz istəklərinə görə ixtisaslaşma seçimində və müsabiqədə imtahanın hər hansı bir cəhdində göstərdikləri nəticə (topladıqları bal) əsasında iştirak edə bilərlər. Hər iki imtahan nəticəsi müsabiqə şərtini ödəyən bakalavrlar müsabiqədə iştirak etmək istədikləri imtahan nəticəsini seçə bilərlər.

İxtisaslaşma seçimi aparılan müddətdə bakalavr bitirdiyi ixtisasa müvafiq və istəyinə uyğun olan 20-dək ixtisaslaşmanın kodunu seçərək "Bakalavrın elektron ixtisaslaşma seçimi ərizəsi"nə istədiyi ardıcıllıqla daxil edib təsdiqləyir. Seçilən bütün ixtisaslaşmalar seçim cədvəlinə əsasən bakalavrın bitirdiyi ixtisasa görə seçmək hüququ olan bir və ya daha çox sayda qəbul proqramına aid ola bilər (qəbul aparılan ixtisaslaşmalar və həmin ixtisaslaşmalara ayrılan yerlərin proqramlar üzrə siyahısı "Magistr" jurnalının 4-cü nömrəsində təqdim olunub).

"Magistr" jurnalının 4-cü nömrəsini "Abituriyent" satış köşkündən (Bakı şəhəri, Nəsimi rayonu, Ə.Salamzadə küçəsi, 28), həmçinin kitab mağazalarından almaq mümkündür.

Müsabiqəyə yalnız "Bakalavrın elektron ixtisaslaşma seçimi ərizəsi"ndə ixtisaslaşmaları seçmiş və təsdiq etmiş bakalavrlar buraxılacaqlar.

İxtisaslaşma seçimi elanının tam mətni DİM-in saytında yerləşdirilib.

Qeyd: "SABAH" qrupları üzrə ixtisaslaşmaları iyulun 3-10-da müvafiq ali təhsil müəssisəsi tərəfindən yaradılmış müsahibə komissiyasından uğurla keçmiş bakalavrlar seçə bilərlər. Müsahibədə iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinin internet səhifəsində tələbələrin qeydiyyatı aparılır.

# Direktor olmaq istəyənlər imtahan verir

***İyulun 6-da 8 şəhər və rayon üzrə 9 imtahan mərkəzində şagird sayı 500-dən çox olan ümumi təhsil müəssisələrinə direktorların işə qəbulu müsabiqəsinin test imtahanı mərhələsi keçirilir.***

Bu barədə "Unikal"a Elm və Təhsil Nazirliyindən (ETN) xəbər verilib. "Dövlət ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul qaydaları"na əsasən, test imtahanında namizədlərə pedaqogika və metodika üzrə 20 sual, tənqidi oxu bacarığı, təhsil və idarəetmə ilə bağlı qanunvericilik, liderlik və menecment, riyazi məntiq üzrə hər birinə aid 10 sual olmaqla ümumilikdə 60 test tapşırığı təqdim ediləcək.

Qeyd edək ki, https://miq.edu.az/direktorlar/ saytında direktorların işə qəbuluna dair nümunə test tapşırıqları yerləşdirilib.

# Azərbaycanda mağazaların onlayn fırıldağının sensasion pərdəarxası

## İstehlakçı hüquqlarını və vergi qanunvericiliyini pozmaqdan qorxmayanların arxayınlığı haradan qaynaqlanır? - Şok detallar...

***Bu gün bütün dünyada olduğu kimi Azərbaycanda da son illər elektron ticarət geniş vüsət alıb. Əziyyət çəkməmək, rahat olmaq üçün sifariş verirsən, məhsulu düz qapına qədər gətirib çıxarırlar. Amma rahatlığın çox çəkmir. Daha doğrusu rahatlığın məhsuldan istifadə edənə kimidir. Tutaq ki, ölçü problemi yaranıb və sən aldığın geyimi qaytarmaq istəyirsən. Bax, əsl məzhəkə bundan sonra başlayır. Min bir bəhanə ilə işə yaramayan məhsulun müştəridə qalmağını istəyirlər. İstehlakçıların çoxu bu problemlə üzləşir. Halbuki qanunla müştərinin aldığı məhsulu 14 gün ərzində geri qaytarmaq səlahiyyəti var.***



"Bizdə qaytarılma yoxdur" deyən mağaza sahibləri isə ən yumşaq şəkildə desək, böyük yalan uydururlar. Bundan başqa onlayn satış həyata keçirən mağazaların əksəriyyəti kassa çeki vermir. Bu isə vergidən yayınma cəhdi ilə yanaşı, müştəri hüququnun kobud şəkildə pozulmasıdır.

Bu yaxınlarda mövzu ilə bağlı APA TV-yə danışan Fidan Qarayeva ad-soyadlı vətəndaşın söylədiklərindən aydın olub ki, oxşar vəziyyətlə üzləşib və məhsulun çekini əvvəlcədən tələb etməsi, onun işini qismən asanlaşdırıb. Lakin eyni halla qarşılaşanların çoxu kassa çeki və ya hansısa ödəniş qəbzi tələb etmədikləri üçün hüquq mühafizə orqanlarına da müraciət edə bilmirlər. Beləcə, aldıqları problemli məhsul elə əllərindəcə qalır.

Araşdırmalar göstərir ki, ölkədə satılan məhsulun çekini müştəriyə verməyən online alış-verişlə məşğul olan satış səhifələri çoxdur. Halbuki İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən bildirilib ki, istehlakçılar onlayn satış platformalarından hər hansı məhsul alarkən mütləq qəbz, kassa çeki və digər təsdiqedici sənəd tələb etməlidirlər. Əgər həmin məhsulu dəyişdirmək və qaytarmaq istəsəniz təsdiqedici sənədləri təqdim etməklə, eyni zamanda malın əmtəə görünüşünü, etiketini, paketləmə qaydalarını pozmamaq şərti ilə 14 gün müddətində dəyişdirə və qaytara bilərsiniz.

O ki, qaldı onlayn ticarətlə məşğul olanların müştərilərə kassa çeki, ödənişi təsdiq edən hər hansı sənədi verməməsinə, Dövlət Vergi Xidmətindən belə olan halda vergi ödəyicisinə maliyyə sanksiyası tətbiq edildiyi bildirilib. Lakin bu günədək neçə bu cür maliyyə sanksiyasının tətbiq olunduğunu "Unikal" olaraq dəqiqləşdirə bilmədik. Əvəzində mövzu ilə bağlı başqa ilginc detallarla qarşılaşdıq.

Məsələn, onlayn mağazalar tərəfindən haqsızlığa uğrayan bir müştərinin sözlərinə görə, ayaqqabı sifariş verib. Sitat: "39 ölçü sifariş versəm də, mənə ölçüsü 42 olan ayaqqabı gətirmişdilər. Uzun mübahisə etsək də, heç bir mənası olmadı. Hətta aramızda mübahisə böyüdü. Qarşı tərəf deyir ki, malı qaytar, yarı qiymətini verim. Yəni mən bahalı aldığım malı ona yarı qiymətə, daha ucuz satım ki, bu da sonra həmin malı satıb ikiqat qazansın. Sonda yenə də qazanan o, zərərçəkən mən olum. Ümumiyyətlə, belə şəxslərin heç bir qorxusu yoxdur".

Bəs bu qorxusuzluq haradan qaynaqlanır? Konkret səbəb demək çətindir. İlk ağla gələn istehlakçı hüquqlarını, vergi qanunvericiliyinin tələblərini və s. pozmaqda heç bir problem görməyən, kimsədən çəkinməyən bir çox onlayn mağazaların nüfuzlu, vəzifəli şəxslərin himayəsində olmasıdır.

Bu yerdə bir müddət əvvəl baş verən ilginc bir faktı xatırlatmaq yerinə düşər: iki ay öncə məlumat yayıldı ki, Sumqayıt sakini Xatirə Beşirova İnstaqramda aldadılıb. O, hüquqlarının pozulması ilə bağlı Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynova müraciət edib. Belə ki, şikayətçi aldığı geyimi İnstaqramdakı "Garderob" səhifəsinin sahiblərinə qaytarmaq və ödədiyi pulu geri almaq istəyir: "Aprelin 9-da səhifəni idarə edən Kəmalə adlı xanımla telefonla əlaqə saxladım. O, boyum və çəkimlə maraqlandı. Ona aldığım geyimlərin 48 ölçü olduğunu bildirdim, o isə mənə 50 ölçünün uyğun olacağını dedi. Ondan geyimin uyğunluğunu yoxlamaq üçün kuryerin bir neçə dəqiqə gözləməsini xahiş etdim. Lakin Kəmalə xanım buna ehtiyac olmadığını dedi. Aprelin 10-u saat 16:05 radələrində kuryer geyimi gətirdi. Ona nağd şəkildə 60 manat (55 AZN geyimə, 5 AZN kuryer haqqına görə) ödədim. Lakin mənə heç bi çek verilmədi. Geyimi yoxlayıb uyğun gəlmədiyini gördüm. Bunu saat 16:10-da Kəmalə xanıma "WhatsApp" üzərindən bildirdim. O, başqa ölçü olmadığını bildirdikdən sonra geyimi qaytarmaq istədiyimi dedim. O isə bunun qeyri-mümkün olduğunu qeyd etdi. Aprelin 14-ü yenidən Kəmalə xanıma zəng edib məhsulu qaytarmaq hüququmun olduğunu bildirdim. O isə belə qanun olmadığını, kimə və hara istəsəm, şikayət edə biləcəyimi dedi".

AİB sədri Eyyub Hüseynovun səhifəni idarə edən Kəmalə xanımla telefonla mediasiya cəhdi isə nəticəsiz qalıb. Eyyub müəllim qarşı tərəfdən "qohumum "vergilər"də işləyir, biz malı dəyişmirik" cavabı alıb.

Göründüyü kimi, bir çox onlayn mağazalar müştəriləri aldatmaqdan, onların istehlakçı hüquqlarını pozmaqdan çəkinmədikləri kimi, ya həqiqətən, ya da yalandan kimlərinsə arxasına sığınaraq özlərini toxunulmaz sayır, əvəzində "qaz vurub qazan doldurur", itirən isə vətəndaş olur.

Belə getsə, çox keçmədən biz hüquq-mühafizə orqanlarının, digər aidiyyatı dövlət qurumlarının onlayn mağazalarla bağlı da qanunlar çərçivəsində əməliyyatlar, yoxlamalar aparmağa başladığının şahidi olacağıq.

***Sənan Mirzə***

## 5.3.18. gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanın uğurlu ailə modeli təbliğ olunmalıdır

## Elgün Səfərov: "Son illər Azərbaycanda boşanmaların sayı azalıb"



***Azərbaycanda ailə institutu əsrlərdir ki, qorunub yaşadılır. Ailəni cəmiyyətin təməl daşı adlandıran Azərbaycan cəmiyyəti sağlam ailə münasibətlərini əsas tutur. Çünki, ailə vətəndaş cəmiyyətini formalaşdıran əsas elementlərdən sayılır. Bu mənada Azərbaycan ailəsi hər zaman digər xalqlara nümunə göstərilib.***

Azərbaycanda ailə modeli, ailə ənənələrinə, milli-mənəvi dəyərlərə söykəndiyindən tarix boyu öz simasını itirməyib. Demək olar ki, ailə dəyərləri Azərbaycan xalqına məxsus ən müqəddəs xüsusiyyətlərdən biridir. Azərbaycan ailəsi bütün dünyada monolitliyi ilə örnək göstərilir. Bununla belə qloballaşma, inteqrasiya mədəniyyətlərin qovuşması və digər bu kimi tendensiyalar Azərbaycanın ailə dəyərlərindən də yan keçməyib. Son illər ölkəmizdə nikahdankənar doğulan uşaqların statistikasının böyüməsi bu mənada narahatlıq yaratmaya bilməz. 2022-ci ilin yekunlarına görə ölkəmizdə doğulan uşaqların 15,3 faizi nikahdankənar doğulub. Ötən il rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayı 18 814 olub. Bu uşaqların 11 630-u, yəni 61,8 faizi kənd yerlərində, 7 184-ü şəhərdə dünyaya gəlib. 2021-ci illə müqayisədə nikahdankənar doğulan uşaqların sayında 7 faizdən çox (1 248 uşaq) artım qeydə alınıb. İki il əvvəl 17 566 uşaq nikahdankənar doğulub. Amma 2015-2019-cu illərlə müqayisədə nikahdankənar doğulan uşaqların sayında ciddi azalma var. Həmin dövrdə hər il 20-21 mindən çox uşaq nikahdankənar doğulurdu.

Ölkəmizdə boşanmaların sayı da artıb. Dövlət Statistika Komitəsinin bu ilin ilk dörd ayına olan məlumatında bildirilib. Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 15065 nikah və 6920 boşanma halları qeydə alınıb və 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 5,6-dan 4,5-ə düşüb. Boşanmaların sayı isə 1,5-dən 2,1-ə qədər artıb.

Bəs görəsən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi boşanmaların qarşısının alınması üçün hansı işləri görür?

Komitədən bildirdilər ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, boşanmalarla mübarizə aparmır. Ailələrin möhkəmləndirilməsi istiqamətində iş aparır. Bu istiqamətdə çoxsaylı layihələr həyata keçirilir. Komitə ailələrin dağılma səbəbini araşdırmaq üçün monitorinq aparır. Qurum tərəfindən hər zaman cəmiyyətin diqqətinin ailə məsələlərinə yönəldilməsi, ailə dəyərlərinin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, gənclərin ailə həyatına hazırlığı, ailədə sülh və dözümlülük mədəniyyətinin, sağlam həyat tərzinin, nümunəvi çoxuşaqlı ailələrin təbliği məqsədilə layihələr keçirilir. Qurumdan həmçinin bildirildi ki, bu gün dövlətin ailə siyasəti Azərbaycan hökumətinin diqqətində olan mühim məsələlərdəndir. Komitə gənc nəsil arasında ailədaxili münasibətlərin,ailə dəyərlərinin, yaşlı nəslə hörmət və məhəbbətin qorunub saxlanılması istiqamətində layihələr həyata keçirir. 15 may Beynəlxalq Ailə Gününün qeyd olunması artıq ölkəmizdə ənənəyə çevrilib. Ailə dəyərlərimizin qorunub saxlanılması sahəsində görülən marifləndirmə işləri aparılır. Ailələrin uzunömürlü olması, ailələrdə məişət zorakılığının qarşısının alınması üçün mütəmadi gənc nəsillə, gənc ailələrlə görüşlər keçirilir. Eyni zamanda yeni qurulacaq ailələrin möhkəmliyi, gənclərin zərərli vərdişlərdən uzaq durması üçün hərbi hissələrdə də əsgərlərlə görüşlər təşkil olunur, bu istiqamətdə marifləndirmə işləri aparılır .

O ki, qaldı ailələlərin dağılma səbəbinə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının informasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov "Unikal"a açıqlamasında bildirib ki, son illər boşanmaların sayı azalıb. Hazırda boşanmaların əsas səbəbi məişət zorakılığıdır. İkinci yerdə narkotik aludəçilik, digər pis vərdişlər, sonsuzluq, qısqanclıq və xasiyyətlərin uyğun gəlməməsi dayanır. Həmsöhbətimiz deyir ki, Komitə ailə qurduqdan bir müddət sonra ayrılmağa qərar verənlərə qarşı çıxıb onların bu seçimini əngəlləyə və qarşısını ala bilməz.

Onun sözlərinə görə, əksər boşanma hallarında xasiyyətlərin uyğunsuzluğu səbəb kimi göstərilsə də, çox vaxt ayrılanlar ailədə zorakılığın olduğunu və digər səbəbləri gizlədirlər. E. Səfərov bildirir ki, illər öncə zorakılıq halları ilə barışıb oturan qadınlar bu gün, ailədə iqtisadi, fiziki, psixi zorakılıqlar zamanı öz hüquqlarını tələb edirlər. Bu da ailələrin dağılmasına gətirib çıxardır.

"Bugünkü Azərbaycan qadınları, illər öncəki qadınlar kimi düşünmür. Əvvəllər ailədə münaqişə olduqda, zorakılıq hadisəsi zamanı qadın övladını, cəmiyyətin ona yanaşmasını, ailənin qorunmasını düşünürdü. Bu gün isə qadınlar öz təhlükəsizliklərini düşünürlər. Öz hüquqlarını müdafiə etməyi bacarırlar" deyə Komitə səlahiyyətlisi bildirdi.

Həmsöhbətimiz deyir ki, bu gün ailələrin uzunömürlü olması, boşanmaların, məişət zorakılığının qarşısının alınması üçün çıxış yolu maarifləndirmə və təbliğatın gücləndirilməsidir. E. Səfərovun sözlərinə görə, yüksək dəyərlərin saxlanıldığı cəmiyyət, güclü dövlət qurmaq istəyiriksə, mütləq şəkildə ailələr sağlam təməl üzərində qurulmalıdır. Bunun üçün isə ailə dəyərlərimiz təbliğ olunmalı, Azərbaycan ailə modeli qorunub saxlanılmalıdır.

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.




# Kino Agentliyi film layihələri müsabiqəsi elan edir

***Mədəniyyət Nazirliyinin tabeliyindəki Kino Agentliyi (ARKA) 2023-2024-cü illərdə istehsal olunmaq üçün film layihələri müsabiqəsi elan edir. Müsabiqə ilə əlaqədar iyulun 18-də təqdimat keçiriləcək.***

"Unikal" xəbər verir ki, müsabiqə milli kinematoqrafiya sahəsində fəaliyyət göstərən yaradıcı şəxslərə dəstək olmaq, bu istiqamətdə çalışan gənc rejissorların fəaliyyətini stimullaşdırmaq, eləcə də kino mühitinə yeni adlar qazandırmaq məqsədi daşıyır.

Film layihələri üçün dövlət tərəfindən ayrılmış vəsaitin (5.5 milyon manat) müsabiqə yolu ilə bölüşdürülməsi təmin ediləcək. Müsabiqə ilə əlaqədar bədii şura yaradılıb, meyarlar və işçi mexanizmlər müəyyən olunub. Eyni zamanda dörd yeni təsisat - animasiya məktəbi, ssenaristlər kursu, kinoaktyor teatrı və texniki təkmilləşmə kurslarının açılması istiqamətində işlər aparılır.

Qeyd edək ki, 2023-cü il köklü ənənələrə malik olan Azərbaycan kinematoqrafiyası üçün əlamətdardır. Bu il Azərbaycan kinosunun 125, Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının yaranmasının isə 100 illiyidir.

Azərbaycan Prezidentinin Sərəncamı ilə Mədəniyyət Nazirliyinin tabeliyində Kino Agentliyinin (ARKA) yaradılması, eləcə də bu sahənin mövcud vəziyyəti və inkişaf istiqamətlərinin müəyyən edilməsi, şəffaf və kollegial idarəçilik modelinin formalaşdırılması milli kinematoqrafiyaya sistemli yanaşmanın göstəricisidir. Yeni şəraitdə Nazirlik film istehsalında stimullaşdırıcı rol oynamaqla bərabər, yerli prodüser şirkətlərinin bu proseslərə aktiv şəkildə qoşulmasına çalışır.

Mədəniyyət Nazirliyi tərəfindən bu istiqamətdə həyata keçirilən islahatların məqsədi şəffaf maliyyə mexanizmlərinin formalaşdırılması, yaradıcı biznes subyektlərinin dəstəklənməsi və ölkədə sağlam, rəqabətədavamlı mədəniyyət ekosisteminin yaradılmasıdır.

# Avtomobillərin parklanması üçün nağd ödəniş qəbul edilməyəcək



***Azərbaycanda avtomobillərin parklanmasına görə maliyyə dövriyyəsinin şəffaflaşdırılması, rəqəmsallaşmanın və istifadə rahatlığının təmin edilməsi məqsədilə ödənişlərin yalnız nağdsız qaydada həyata keçirilməsi nəzərdə tutulur.***

Bunu Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildiriblər.

Məlumata görə, bunun üçün xüsusi mobil tətbiq də istifadəyə veriləcək. İlkin mərhələdə müvafiq əməkdaşlar və könüllülər sürücülərə yeni sistemdən istifadə qaydalarını izah edəcəklər. Parklanmadan gələn gəlirlər sistemin saxlanılmasına, həmçinin dövlət tərəfindən nəqliyyat infrastrukturunun inkişafına yönəldiləcək.

İyunun 25-də Nazirlər Kabineti "Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği"ni təsdiq edilib.

# "Vado Korovin qohumlarını "Space"ə yığıb qanunsuzluq edir"



***Tanınmış teleaparıcı Zamirə Dadaşova "Space" TV-nin rəhbəri Vado Korovindən şikayətçidir.***

"Unikal" xəbər verir ki, o bu barədə sosial şəbəkə hesabında paylaşım edib. ""Space" MMC-nin hazırkı direktoru Vado Korovinin və onun ətrafında olan Fətiyev qardaşlarının, "Space"in baş redaktoru, deyilənə görə, Korovinin qohumu olan Elnurə adlı xanımın özbaşınalıqlarından narazıyam. Artıq neçə gündür əmək kitabçamı bu şirkətdən götürə bilmirəm. Aprelin 1-də müəllifi olduğum "Açıq söhbət" verilişinin saat 21.00 efirinə salınmasına baxmayaraq, heç bir səbəb olmadan efirdən çıxardılar. Halbuki, özlərinin razılığı ilə çəkiliş aparılmışdı. Aprelin 27-də Vado Korovinin imzasıyla ixtisara düşdüyüm haqda xəbərdarlıq göndərdilər. Heç bir səbəb gətirmədən əmək kitabçamı və əmri mənə vermək istəmirlər. Səbəbini anlamıram. Deyirəm siz mənə Vado Korovinin imzasıyla xəbərdarlıq göndərmisiz. Xəbərdarlığı göndərən deyir, o, cızma-qaradır, hüquqşunasımız deyir işə gəlmədiyinə görə işdən azad edək, belə daha doğrudur. Əlimizdə sübut da var ki, face kontroldan kecməyib. Kadrlar şöbəsinin müdiri deyir "mən onların sözündən çıxa bilmərəm. Yoxsa mənə pis olar. Dərəbəylikdir "Space"də yəqin ki. Bəs mənim əlimdə olan sənəd Vado Korovin üçün sübut deyil? Bütün nəsli, deyilənə görə, orada işləyir. Qızınızın, kürəkəninizin adını da işçilər hallandırır. Fətiyevlər də üç qardaş (Vüqar, İlqar və Qalib) bütün qanunsuzluqlara əl atırlar".

Z.Dadaşova sözlərinə belə davam edib: ""Space" sizə etibar edilməyib ki, ətrafınıza qohumlarınızı, dostlarınızı yığıb özbaşınalıq edib, işçiləri incidəsiniz. Ancaq öz cibini, mənafeyini güdüb, gülünc, əxlaqı pozan verilişləri efirdə yayımlayıb insanların əsəbiylə oynayırsınız. Əməkhaqları yenə gecikdirilir. İnsanlara şər atmaqla məşğulsuz. Məndə səs yazıları, yazışmalar var, lazım olsa, lazımi orqanlara onları da təqdim edərəm. Hələ ki sizin bu gün mənə qarşı etdiyinizə qiymət verə bilmirəm. Bu nə qanunsuzluqdur? Bilmirsiniz bu ölkənin qanunları var? Bilmirsiniz, sizin mənə əmək kitabçasını verməməyiniz mənim işə düzəlməməyim deməkdir? Bilmirsiniz, bu mənim əməkhaqqı almamağına gətirib çıxarır? Belə siz nəslinizi haram pullarla, onun-bunun haqqına girərək yedirməyə öyrəşmisiniz, Mənim uşaqlarım halal pulla, məvaciblə dolanır. Vəkilim lazım olan instansiyalara yazılı müraciət edəcək".

# Heydər Əliyev Mərkəzinin parkında caz konserti

***Beynəlxalq Bakı Yay Caz Günlərinin 3-cü günü cazsevərləri açıq məkanda - Heydər Əliyev Mərkəzinin parkında toplayıb. İyulun 5-də gürcüstanlı pianoçu, aranjimançı, Berkli Musiqi Kollecinin professoru Giorgi Mikadzenin və Azərbaycandan olan gənc pianoçuların çıxışı olub.***

Əvvəlcə caz axşamında Azərbaycan cazının banisi olan Vaqif Mustafazadənin adını daşıyan 2 nömrəli Uşaq İncəsənət məktəbinin şagirdləri - piano ifaçıları çıxış edib. Onlar Vaqif Mustafazadə və Əzizə Mustafazadənin əsərlərini təqdim ediblər.

Daha sonra Giorgi Mikadze Bakı Yay Caz Günləri çərçivəsində keçirilən konsertdə Fransadan olan musiqiçilərlə birgə tanınmış gürcü bəstəkarlarının caz improvizasiyalarını ifa edib.

Giorgi Mikadze - Gürcüstanın paytaxtı Tbilisidə anadan olan, hazırda Amerika Birləşmiş Ştatlarında yaşayan məşhur caz pianoçularındandır. Fortepianoda 5 yaşından ifa edən Mikadze ilk solo konsertini simfonik orkestrin müşayiəti ilə 12 yaşında verib. İki il sonra isə o, musiqi bəstələməyə başlayır və caza həvəs göstərir.

Öz kvartetini təsis edəndən sonra Giorgi Mikadzenin karyerasında dönüş yaranır. Həmin kvartetlə bir çox beynəlxalq caz festivallarının iştirakçısı olan musiqiçi nüfuzlu Montre festivalında da uğurla çıxış edib.

Mikadze üçün səhnə - xoşbəxtlik deməkdir. Dünyanın aparıcı musiqiçiləri və nüfuzlu tənqidçiləri Giorgi Mikadzeni peşəkar və universal musiqiçi adlandırırlar.

İyulun 3-dən başlayan və iyulun 7-nədək davam edəcək Beynəlxalq Bakı Yay Caz Günləri Premier LTD agentliyinin təşəbbüsü və təşkilatçılığı, Heydər Əliyev Mərkəzinin dəstəyi ilə baş tutur.

Artıq 5-ci dəfərdir ki, təşkil edilən Beynəlxalq Bakı Yay Caz Günləri qapalı məkanlarla yanaşı, açıq havada da keçirilir. Bu isə caz günlərinin əsas məqsədinə - caz musiqisinin daha geniş auditoriyaya təbliğ edilməsinə xidmət edir.

Festivalın növbəti konserti Mərkəzin parkında iyulun 7-də olacaq. Konsertə giriş sərbəstdir.

# Valyuta mübadiləsinə dair tələblər sərtləşdirilir

***Mərkəzi Bank valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər tərəfindən aparılan valyuta mübadiləsi əməliyyatlarının yuxarı həddini müəyyən edəcək.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Valyuta tənzimi haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Valyuta mübadiləsi fəaliyyətini həyata keçirmək istəyən şəxs lisenziyanın alınması üçün maliyyə bazarlarına nəzarət orqanına ərizə ilə müraciət etməlidir. Layihəyə əsasən, bu orqan Mərkəzi Bank olacaq. Ərizəyə qeyri-rezident hüquqi şəxsin nizamnaməsinin, filialın yaradılması barədə səlahiyyətli idarəetmə orqanının qərarının, qeyri-rezident hüquqi şəxsin ən azı son üç maliyyə ili (hüquqi şəxs üç ildən az müddətdə yaradıldıqda isə son maliyyə illəri və ya ili) üçün auditor yoxlamasından keçmiş maliyyə hesabatının və auditor rəyinin qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış surəti də əlavə olunmalıdır.

Qüvvədə olan qanuna görə, ərizəyə təsisçinin (təsisçilərin) iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə məhkumluğunun olmaması haqqında müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş arayış əlavə edilirdi. Artıq təsisçinin iqtisadi sahədə cinayətlərə görə məhkumluğunun olmaması şərti də olacaq. Başqa sözlə, ərizəyə təsisçinin (təsisçilərin) (hüquqi şəxs olduqda icra orqanının rəhbərinin) iqtisadi sahədə cinayətlərə görə məhkumluğunun olmaması haqqında məlumat və təsisçi (hüquqi şəxs olduqda icra orqanının rəhbəri) əcnəbi olduqda, rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onun iqtisadi sahədə cinayətlərə görə məhkumluğunun olmaması barədə verilmiş və qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış arayış əlavə olunmalıdır.

Layihədə ərizəyə aşağıdakıların da əlavə olunması tələbi əksini tapıb:

- təsisçi hüquqi şəxs olduqda - onun adını, ünvanını, kommersiya fəaliyyətinin növünü, azı son üç maliyyə ilini (hüquqi şəxs üç ildən az müddətdə yaradıldıqda isə son maliyyə illəri və ya ili) əhatə edən və auditor yoxlamasından keçmiş maliyyə hesabatlarını və auditor rəyini göstərən məlumat və sənədlər, habelə həmin şəxsin nəzərdə tutulan iştirak payının əldə edilməsi barədə səlahiyyətli idarəetmə orqanının qərarının surəti, təsisçi xarici hüquqi şəxs olduqda isə əlavə olaraq qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış, onların yerləşdiyi ölkədə qeydiyyatdan keçdiyini təsdiq edən sənəd, nizamnamə (əsasnamə), ən azı son üç maliyyə ili (hüquqi şəxs üç ildən az müddətdə yaradıldıqda isə son maliyyə illəri və ya ili) üçün auditor yoxlamasından keçmiş maliyyə hesabatı və auditor rəyi;

- təsisçi fiziki şəxs olduqda - onun soyadını, adını, atasının adını və vətəndaşlığını, şəxsiyyətini təsdiq edən sənədin məlumatlarını, daimi yaşayış yerini, məşğuliyyət növünü göstərən məlumat və sənədlər, təsisçi əcnəbi olduqda (daimi yaşayış yeri Azərbaycan Respublikasının ərazisi olan əcnəbilər istisna olmaqla) isə əlavə olaraq rezidenti olduğu ölkənin bir və ya bir neçə maliyyə təşkilatlarının müsbət tövsiyələri və/və ya bank hesablarından çıxarışlar;";

- nizamnamə (şərikli) kapitalının miqdarı, nizamnamə (şərikli) kapitalında hər bir pay sahibinin payı və payın əldə edilməsinə yönəldilən vəsaitin mənbəyi haqqında məlumatlar və sənədlər;

- minimum nizamnamə (şərikli) kapitalının ödənilməsi barədə bank sənədi;

- Mərkəzi Bankın müəyyən etdiyi formada iştirakçılar arasında münasibətlər və benefisiar mülkiyyətçi (mülkiyyətçilər), o cümlədən onların bu Qanunla müəyyən edilmiş vətəndaş qüsursuzluğu haqqında məlumat, benefisiar mülkiyyətçi əcnəbi olduqda isə rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış arayış;



- mühüm iştirak paylarının sahiblərinin (hüquqi şəxs olduqda onun icra orqanının rəhbərinin) və idarəetmə funksiyalarını yerinə yetirən şəxslərin siyahısı və onların vətəndaş qüsursuzluğuna dair məlumat, həmin şəxslər əcnəbi olduqda isə rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış arayış;

- Lisenziya alınması üçün müraciətə baxarkən Mərkəzi Bank ərizəçinin nizamnamə (şərikli) kapitalında pay sahiblərinin, benefisiar mülkiyyətçilərinin maliyyə vəziyyəti və nizamnamə (şərikli) kapitalının mənbəyi barədə müstəqil və etibarlı mənbələrdən, habelə aidiyyəti dövlət orqanlarından (qurumlarından) məlumatlar əldə edə bilər. Dövlət orqanları (qurumları) Azərbaycan Respublikası Mərkəzi Bankının sorğu etdiyi məlumatı yeddi iş günü ərzində verməlidirlər. Dövlət orqanları (qurumları) sorğu edilən məlumatların dövlət sirri istisna olmaqla, kommersiya sirri, vergi sirri və ya qanunla mühafizə olunan digər konfidensial məlumatlara aid olmasına istinad etməklə həmin məlumatların verilməsindən imtina edə bilməz.

- bu maddəs valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxsdə sonradan mühüm iştirak payını əldə etmək istəyən və benefisiar mülkiyyətçi olan şəxslərə də şamil edilir.

- Bu Qanunun məqsədləri üçün müvafiq şəxslərin məhkumluğu Azərbaycan Respublikası Mərkəzi Bankının sorğusu ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) verdiyi arayış əsasında müəyyən edilir.

Müzakirələrdən sonra dəyişikliklər səsverməyə qoyularaq III oxunuşda qəbul edilib.

***Anar Kəlbiyev***

# Rayonlarda suvarma sistemləri təkmilləşdirilir

***Ağdamda çaylara gələn sudan istifadə edilir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Son günlər ölkə ərazisində havaların yağıntılı keçməsi nəticəsində Qarabağdan gələn çaylarda da suyun səviyyəsi artıb. Ağdam ərazisindən keçən Xaçınçay və Qarqarçaya sel gəlib.***

Bunun üçün də Ağdamın hazırda yaşayış olan məntəqələrində sel sularının törədə biləcəyi fəsadların aradan qaldırılması istiqamətində işlər davam etdirilir. Xaçın çayın Ağdam ərazisindən keçən hissəsinə su Xaçınçay su anbarından gəlir. Tutumu 23 milyon kub metr olan anbar hazırda tam dolub. Qəza sutullayıcısından çıxan su isə Ağdamın yaşayış məntəqələrindən keçərək Kür çayına axır. İki gündür gələn güclü selin Qərvənd və yaxın yaşayış məntəqələrinə ziyan vurmaması üçün Ağdam Mexaniki Suvarma İdarəsinin texnikaları və canlı qüvvəsi əraziyə cəlb olunub.

Sel sularının gəlməsi nəticəsində Xaçın çay su anbarı tam dolub və çayda olan su gölün qəza su tullayıcı hissəsindən gələn sulardır. Rayon ərazisindən normalara uyğun şəraitdə keçən su heç bir zərər verməyib. Gələn sudan suvarmada da istifadə edilir. İdarə gücləndirilmiş iş rejimində işləyir, bütün tədbirlər görülərək suyun maneəsiz axınını təmin edilib.

Çaya gələn seldən fermerlər səmərəli istifadə edirlər. Su əkin sahələrinə yönləndirilib. Ərazidə elektriklə işləyən subartezian quyuları fəaliyyətinin dayandırıb. Sakinlər dağlardan gələn minerallarla zəngin çay suyundan istifadə edirlər.

Hazırda Qarqar çayında 30-35 km3 su var. Xaçın çayında isə 40-45 km3 su



var. Xaçın çayının yuxarı hissəsində Əliağalı kəndində Xaçın çay su anbarı var ki, həmin Xaçın çay su anbarının tutumu 23 milyon kub metrdir, anbar tam dolub. Sel suları heç bir torpaqlara, fermerlərə fəsad verməyib. Suyun bolluğunu nəzərə alaraq elektrik enerjisinə qənaət etmək məqsədi ilə Qərvənd kəndində 28, Qarqar çayında isə 41 ədəd artezian quyusu dayandırılıb.

Növbəti günlərdə də çaya suyun çox gələ biləcəyini nəzərə alaraq idarə tərəfindən texnikalr ərazidə saxlanılır.

Göyçayda ucqar kəndlərdə suvarma kanalları təmizlənir. Dilqəm Şərifov bildirib ki, Göyçay rayonunda son illər görülən meliorativ tədbirlər nəticəsində rayon ərazisində əkilən kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı artıb. Sahələrin vaxtında və səmərəli suvarılması üçün Göyçay Suvarma Sistemləri İdarəsi tərəfindən hər il mütəmadi olaraq bu işlər davam edir. Rayonda 26568 ha suvarılan əkin sahəsinə xidmət edən idarə 3 su mənbəyindən istifadə edir. Həmin mənbələrdən biri olan Yekəxana su anbarından təsərrüfatlara su çatdıran Qarayazı beton kanalının ümumi uzunluğu 27 km-dir. Əkin sahələrini suvarma suyu ilə təmin etmək üçün 1722 km suvarma kanalından istifadə olunur ki, bundan 206 km-i təsərrüfatlar arası kanal və 1517 km-ə yaxını təsərrüfatdaxili kanallardır. Təsərrüfatlararası kanallar üzərində 631 ədəd, təsərrüfatdaxili kanallar üzərində isə 1273 ədəd hidrotexniki qurğular vardır. İdarə suvarma ilə yanaşı Göyçay çayında baş verə biləcək sel hadisələrinin aradan qaldırılması istiqamətində də tədbirlər görülür.

Bu ilin əvvəlindən etibarən Göyçay Suvarma Sistemləri İdarəsi tərəfindən 136 km-ə yaxın məsafədə lildən təmizləmə işləri aparılıb. O cümlədən Kürdşaban, Alpoud, Qızılağac, Hüngütlü, Mallı-Şıxlı, Hacıağabəyli, Ərəbşahverdi, Bəydövül və digər suvarma arxları da lildən təmizlənib. Artıq rayonun ucqar kəndlərində də işlər plan uyğun aparılır.

Hazırda Bığır, Mirzəhüseynli, Qarabağlar, Bəydövül, Çərəkə, Qarabaqqal suvarma arxlarında lildən təmizləmə işləri davam etdirilir. Bununla yanaşı şəhər daxilindən keçən Mallı Şıxlı, Potu, Çərəkə, Qarabörk, Qəzyan və Şəhadət suvarma arxları da lildən təmizlənərək lil və digər çöküntülərin avtomaşınlarla daşınması təmin edilib.

Qeyd edək ki, Göyçay Suvarma Sistemləri İdarəsi tərəfindən 2023-ci il ərzində təmir planına əsasən Alxasafa suvarma arxı üzərində 1 ədəd şlüz, Yekəxana suvarma arxı üzərində 2 ədəd şlüz, Alpoud suvarma arxında 2 su buraxıcı şlüz və 1 ədəd şlüz boru ilə birlikdə, Hüngütlü kəndi ərazisində Xəlitli suvarma arxında 2 ədəd su bölüşdürücü şlüz və Şəkər suvarma arxında 1 ədəd şlüz quraşdırılaraq cari təmir işləri aparılıb.

***Hüseyn İsgəndərov***

# 2024-cü ildə dünyanı nələr gözləyir?

***"Balkanların Nostradamusu" kimi tanınan və bir çox kəhanətləri ilə beynəlxalq ictimai rəyin gündəmində olan Baba Vanqanın 2024-cü il üçün sözləri və yeni kəhanətləri ortaya çıxıb.***

"Unikal" xəbər verir ki, bu barədə Ruminiya KİV-ləri məlumat dərc ediblər. Məlumata görə, Baba Vanqa 2024-cü ildə dünyada böyük bir transformasiyadan keçəcəyini bildirib. 2024-cü ildə iki çox böyük elmi irəliləyişin dünyanın gedişatını sonsuza qədər dəyişdirəcəyi iddia edən, Vanqa xərçəngə qarşı bir dərman hazırlanacağını və bu xəstəliyin aradan qalxacağını da qeyd edib. Digər tərəfdən, Baba Vanqa QİÇS-in kökünün kəsiləcəyini vurğulayıb.



Baba Vanqanın 2024-cü il üçün irəli sürdüyü kəhanətlərdən biri də "neft əsri"nin sona çatacağıdır.

Xatırladaq ki, Vanqanın 2023-cü il üçün kəhanətləri arasında nüvə fəlakəti xəbərdarlığı da var. Bildirilib ki, Çernobıl fəlakəti barədə əvvəllər məlumat verən Vanqa 2023-cü ildə atom elektrik stansiyasının partlaması nəticəsində baş verə biləcək fəlakət barədə xəbərdarlıq edib. Belə ki, aylardır davam edən Rusiya-Ukrayna müharibəsində Avropanın ən böyük Zaporojye Atom Elektrik Stansiyasını rus işğalçıları tərəfindən tutulub.

Bundan sonra ekspertlər bölgədəki nüvə təhlükəsinə diqqət çəkib. Xüsusilə nüvə narahatlıqlarının artdığı, Ukraynada baş verə biləcək fəlakətə qarşı xalqa yod həblərinin paylandığı bir vaxtda Baba Vanqanın nüvə kəhanəti gündəmdədir.

Rus işğalçılarının fabrikdə etdiyi ən kiçik səhv Avropanın bir çox ölkəsi üçün ağır nəticələrə səbəb ola bilər.

Qeyd edək ki, "Balkanların Nostradamusu" kimi tanınan bolqar 11 sentyabr hücumlarını və illər əvvəl Brexit prosesini proqnozlaşdırmışdı. Gənc yaşda görmə qabiliyyətini itirən Vanqanın kəhanətləri hər il diqqətlə izlənilir.

***Gülayə Mecid***



## AzTV-nin aparıcısı reanimasiyaya yerləşdirildi

***Azərbaycan Dövlət Televiziyasının (AzTv) aparıcısı Natəvan Babayeva reanimasiyaya yerləşdirilib.***

"Unikal" Gununsesi.info-ya istinadən xəbər verir ki, bir neçə ildir onkoloji xəstəliklə mübarizə aparan tanınmış jurnalistin müalicə üçün Türkiyəyə gedərkən Bakıda hava limanında halı pisləşib.

Ailəsi onu "Liv Bona Dea Hospital"a yerləşdirib.

Xatırladaq ki, Natəvan Babayeva AzTV-dən öncə uzun illər ANS televiziyasının aparıcısı olub.

## 8 iyuldan bu ölkəyə vizasız gedib üç ay qala biləcəyik

***Xəbər verdiyimiz kimi, may ayında ümumvətəndaş pasportlarına malik Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının hər iki ölkəyə vizasız gedib 3 ay qala biləcəklərinə dair qanun təsdiqlənib.***

Bu, 8 iyul 2023-cü il tarixindən etibarən mümkün olacaq. Bununla bağlı Azərbaycanın Dubaydakı Baş Konsulluğu məlumat yayıb.

Məlumata görə, ümumvətəndaş pasportlarına malik hər iki ölkənin vətəndaşları qarşılıqlı olaraq digər dövlətin ərazisinə vizasız və rüsumsuz daxil ola və 90 gündən artıq olmayan müddətdə qala bilərlər.

## FHN-dən çimərliklərlə bağlı əhaliyə müraciət

***Fövqəladə Hallar Nazirliyi (FHN) çimərliklərdə təhlükəsizlik qaydaları ilə əlaqədar əhaliyə müraciət edib.***

FHN-in Mətbuat Xidmətindən "Unikal"a daxil olan müraciətdə deyilir: "Çimərlikdə xoş zaman keçirmək üçün Fövqəladə Hallar Nazirliyi bir sıra təhlükəsizlik qaydalarına əməl edilməsinin vacibliyini bildirir. Belə ki, nəzərdə tutulmamış ərazilərdə çimmək, çimmə zonasının işarələnmiş sərhədlərindən kənara üzmək, küləkli havada dənizə girmək, çimərlikdə gecələmək, sərxoş halda çimərlikdə olmaq, suda kobud hərəkətlər etmək, çimərlikdə balıq tutmaq, xilasetmə texnikasından başqa digər qayıq və kiçik gəmilərlə çimərliyə daxil olmaq qadağandır.

Yadda saxlayın ki, çimərlikdə uşaqlar nəzarətsiz qalmamalı, xəbərdaredici nişan və lövhələrin göstərişlərinə, xilasedicilərin çağırış və tələblərinə sözsüz əməl edilməlidir!

Qızmar günəş altında fasiləsiz dayanmaq, hava qaraldıqdan sonra suya daxil olmaq təhlükəlidir!".

# Amerikanın Ukraynaya verdiyi raketlər Rusiyanın əlinə keçdi



***Ukrayna Hərbi Hava Qüvvələrinə məxsus iki Su-25 təyyarəsi vurulub.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyinin general-leytenantı İqor Konaşenkov məlumat verib.

Hərbi təyyarələrin Donetsk Xalq Respublikasında (DXR) vurulduğu qeyd olunub.

Bundan əlavə, dörd "Storm Shadow" raketi və ABŞ-nin verdiyi dörd HIMARS reaktiv yaylım atəşi sisteminin (MLRS) ələ keçirildiyi deyilir.

*Ağarza Elçinoğlu*

# Lavrovun xüsusi nümayəndəsi Bakıya gəlir

***Rusiya xarici işlər nazirinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayev Bakı və İrəvana səfər edəcək.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova iyulun 6-da keçirdiyi brifinqdə deyib.

O söyləyib ki, bu səfər tərəflər arasında mövqelərin yaxınlaşmasına kömək edəcək.

Səfərin dəqiq tarixi açıqlanmayıb.

# "Moskva bunu Minsklə məsləhətləşib tətbiq edəcək" - Belarus lideri



***Rusiya nüvə silahından istifadə etmək niyyətində olarsa, Belarusla məsləhətləşəcək.***

"Unikal" xəbər verir ki, bunu Belarus lideri Aleksandr Lukaşenko mətbuat nümayəndələri ilə görüşündə deyib.

Onun sözlərinə görə, Rusiyanın müəyyən sayda nüvə başlıqları artıq Belarusa köçürülüb. "Rusiya bunu etmək qərarına gəlsə belə, əminəm ki, ən yaxın qonşusu ilə məsləhətləşəcək".

Belarus prezidenti nüvə silahından istifadə ilə bağlı narahat olmamağa çağırıb və vurğulayıb ki, o, nə ABŞ-a, nə Almaniyaya, nə Böyük Britaniyaya, nə də başqasına hücum etmək fikrində deyil.

*Gülayə Mecid*

# "Azərbaycanla sərhəddə üç keçid məntəqəsini açmağa hazırıq" - Paşinyan

***"Ermənistan Azərbaycanla sərhəddə üç keçid məntəqəsi açmağa hazırdır".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan deyib.

O, bu barədə rəsmi Bakıdan cavab gözlədiyini açıqlayıb. Paşinyan həmçinin bildirib ki, sülh müqaviləsinin mətni hələ imzalanmaq üçün tam hazır deyil.

*Ağarza*

# Ərdoğandan təşəkkür ziyarəti



***Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ən çox səs topladığı Bayburt və Gümüşhane vilayətlərinə təşəkkür ziyarəti gerçəkləşdirəcək.***

"Unikal" Türkiyə mediasına istinadən xəbər verir ki, Ərdoğan prezident seçkilərinin hər iki turunda yüksək topladığı vilayətlərdə xalqa müraciət edəcək.

Qeyd edək ki, Türkiyə prezidenti Bayburtda birinci mərhələdə 78,86%, ikinci turda 82,45%, Gümüşhanedə birinci turda 74,42%, ikinci turda 78,54 % səs toplamışdı.

*Nuranə*

# Putin "Vaqner"ə nəzarəti bu şəxsə həvalə edib

***2022-ci ilin fevral ayından bəri davam edən Rusiya-Ukrayna müharibəsində Moskva administrasiyası adından bölgədə döyüşən muzdlu qruplaşma "Vaqner"in qısamüddətli qiyamının əks-sədaları davam edir.***



"Unikal" xəbər verir ki, bir müddət Rusiya prezidenti Vladimir Putinin ən güvəndiyi şəxslərdən biri olan "Vaqner"in qurucusu və lideri Yevgeni Priqojin son həftələrdə Moskva administrasiyasını hədəf almışdı. Bununla yanaşı, o, işğal altındakı bölgələri tərk edərək Moskvaya doğru hərəkət etmək qərarına gəlmişdi.

Bu hadisə Rusiyada tarazlığın pisləşdiyinə işarə etsə də, Belarus lideri Aleksandr Lukaşenkonun müdaxiləsi ilə böhran sona çatdı. Bundan sonra Putin Priqojinin Rusiyada onlarla daşınmaz əmlakını və pullarını müsadirə edib.

Beynəlxalq mediada yer alan xəbərlərə görə, Rusiya lideri müsadirə edilən "Vaqner"in biznesini sevgilisi Alina Kabayevaya həvalə edib. Bildirilir ki, "Vaqner"in bütün işləri ilə 40 yaşlı Kabayeva məşğul olacaq. Uğurlu gimnast kimi tanınan və bir müddət Putinlə gizli eşq yaşayan Kabayevanın Putindən ən azı 3 övladının olduğu bildirilir.

Rusiya ictimaiyyəti tərəfindən "taclı çariça" kimi tanınan Kabayeva son illərdə Milli Media Qrupu media şirkətinə rəhbərlik edir. Bildirilib ki, Kabayeva Priqojinə məxsus "Patriot Media Group" media şirkətini də idarə etməyə başlayacaq. Moskva rejiminin bu yolla "Vaqner"in təsirini azaltmağı hədəflədiyi də öyrənilib.

Putinin özündən 31 yaş kiçik olan sevgilisi Kabayevanın ixtiyarında "Maybach" limuzinləri parkı var və Moskvada səfərləri zamanı yüksək səviyyəli təhlükəsizlik tərəfindən qorunur.

Kabayeva 2 Olimpiya, 14 Dünya Çempionatı və 25 Avropa Çempionatının medalı ilə bədii gimnastika tarixində ən çox medal qazanan gimnastlardan biri kimi tanınır. İdmanı tərk edərək siyasətə gələn Kabayeva Putinin partiyasından deputat seçilib.

*Gülayə Mecid*

# "Makronun üzərinə götürdüyü məsələlərin heç birində nəticə olmayıb" - Rusiya XİN

***"Bizi təəccübləndirmək çətindir, lakin prezident Makron bəzən buna nail olur".***



"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə Fransa prezidenti Emmanuel Makronun iyunun 28-də Marseldə müxtəlif nüfuzlu dairələrin nümayəndələri ilə görüşündə verdiyi bəyanatı şərh edərkən deyib.

Zaxarova Fransa liderinin üzərinə götürdüyü məsələlərin səmərəsiz olduğunu açıqlayıb: "Biz Fransa prezidentinin verdiyi bu xüsusiyyətlərə, onun Dağlıq Qarabağ nizamlanması prosesində şəxsi rolu və pafosla danışdığı töhfələrindən təəccüblənməyə davam edirik. Heyf ki, belə səmərəli işin əməli nəticəsi yoxdur. Və bəlkə də nəticələrini heç kim görmədiyi üçün demədi. Üstəlik, nəinki Dağlıq Qarabağ nizamlanmasında Fransanın vasitəçiliyi məsələsində, hətta prezident Makronun dəfələrlə öz üzərinə götürdüyü digər beynəlxalq məsələlərdə də heç kim heç bir nəticə görməyib".

*Ağarza Elçinoğlu*

# "Zelenski qalib gəlməyəcəyini anlayıb" - Lukaşenko

***Ukrayna prezidenti Volodimir Zelenski qalib gəlməyəcəyini anlayıb və indi bu vəziyyətdən birtəhər çıxmağa çalışır.***

"Unikal" xəbər verir ki, bunu Belarus prezidenti Aleksandr Lukaşenko Minskdə xarici KİV nümayəndələri ilə söhbəti zamanı deyib. Belarus lideri qeyd edib ki, Qərbin Ukraynaya yardım vədləri fonunda Zelenskinin "qanadları var idi, uçurdu".

"Bəs indi nə? O, nəhayət ki, qalib gəlməyəcəyini anladı. O, artıq bu vəziyyətdən çıxmaq üçün addımlar atır ", - o qeyd edib. Lukaşenkonun sözlərinə görə, Zelenski anlayıb ki, əkshücum Ukrayna tərəfinə "minlərlə insanın ölümündən başqa" heç nə gətirməyəcək.



# Polşa nüvə silahı əldə edə bilər

***Polşa nüvə silahı əldə edə bilər. NATO-da bu ehtimal istisna edilmir.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bunu Polşanın baş naziri Mateuş Moravietski deyib. O, NATO-nu Polşanı mümkün qədər tez nüvə silahı ilə təmin etməyə çağırıb.

Onun sözlərinə görə, Rusiya taktiki nüvə silahlarının Belarusda yerləşdirilməsindən sonra Polşa indi "ən yüksək təhlükəsizlik səviyyəsinə sahib olmaq istəyir ".

Bundan əvvəl Rusiya Federasiyası Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev bildirib ki, Polşada nüvə silahının mümkün yerləşdirilməsi onlardan istifadə təhlükəsi yaradır.

*Gülayə*

# Pike: "Futbol üçün darıxmıram"

***"Barselona"nın sabiq futbolçusu, ötən ilin noyabr ayında karyerasını başa vuran Jerar Pike hazırkı həyatından danışıb.***

Qol.az AS-a istinadən xəbər verir ki, o, özünü yaxşı hiss etdiyini deyib: "Futbol üçün heç də darıxmıram. Bu keçmiş mərhələdir. Geriyə baxmaq faydasızdır. Hər şey çox yaxşı keçdi, heç futbol xəyalımda da yoxdur. Axı mən həyatımın klubunda ("Barselona"da - red.) çox şey qazandım. Bu mərhələ artıq keçib. İndi idman etməkdənsə, az yeməyə üstünlük verirəm. Bədənimin tələb etdiyi qədər yeyirəm. Özümü yaxşı hiss edirəm.



Mənim fəlsəfəm istədiyimi etməkdir".

Qeyd edək ki, "Barselona"nın yetirməsi olan Pike 2004-cü ildə "Mançester Yunayted"ə keçib. İspaniya millisinin sabiq üzvü 2006-cı ildə "Real Saraqosa"ya bir illik icarəyə verilib. 2008-ci ildə isə Kataloniya klubuna qayıdıb və karyerasını başa vurana-dək orada oynayıb.

# "Linkoln"a qarşı oyunlar çox çətin olacaq" - "Qarabağ"ın futbolçusu

***"Qarabağ"ın braziliyalı yarımmüdafiəçisi Julio Romao Çempionlar Liqasının 1-ci təsnifat mərhələsində Cəbəllütariq "Linkoln"una qarşı keçirəcəkləri matçlar haqqında danışıb.***

Qol.az xəbər verir ki, o, uğur qazanmaq üçün əllərindən gələni edəcəklərini deyib: "Linkolna qarşı oyunlar çox çətin olacaq. İlk görüşə tam gücümüzlə yanaşmalıyıq. Çempionlar Liqası asan turnir deyil. Ona görə də qələbə qazanmaq üçün mümkün qədər konsentrasiya olmalıyıq. Biz Çempionlar Liqasının başlamasını səbirsizliklə



gözləyirik və uğur qazanmaq istəyirik". Qeyd edək ki, "Qarabağ"la "Linkoln" arasındakı ilk matç iyulun 11-də Cəbəllütariqdə olacaq. Cavab oyunu isə iyulun 19-da Bakıda keçiriləcək.

# "Mənim üçün yeni şans var" - Mahir Emreli

***"Mənim məqsədim "Dinamo"da mohkəmlənmək idi. Çünki bu klubun əhəmiyyətini bilirəm. Amma sən ön planda olmayanda özün üçün daha yaxşı qərar qəbul etməlisən".***

Bu sözləri Azərbaycan millisinin hücumçusu Mahir Emreli Xorvatiyanın "Vecernji" nəşrinə müsahibəsində deyib. 26 yaşlı hücumçu deyib ki, artıq hər şey geridə qalıb (keçmiş baş məşqçi Ante Çaçiçin onu daimi oynatmaması nəzərdə tutulur).



"İndi yeni baş məşqçi və mənim özümü göstərmək üçün şansım var. Hər şeyi edəcəyəm ki, məni klubuna gətirən insanların inamını doğruldum" - deyə M.Emreli bildirib.

O, iyulun 15-də "Hayduk"a qarşı keçiriləcək superkubok matçında iştirak etmək istədiyini söyləyib: "Derbidə iştirakdan gözəl nəsə ola bilməz".

Qeyd edək ki, hazırda M.Emreli müqavilə ilə məxsus olduğu "Dinamo"nun təlim-məşq toplanışında iştirak edir. Onun yeni mövsümü hansı klubda keçirəcəyi hələ bəlli deyil.

# PSJ-nin prezidentinin evində axtarış aparıldı

***PSJ-nin prezidenti Nasser Əl-Xelaifinin evində korrupsiya şübhələri ilə bağlı axtarış aparılıb.***

Bu haqda "RMC Sport" məlumat yayıb. Mərkəzi Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin polis əməkdaşları Əl-Xelaifinin yeni baş məşqçi Luis Enrikenin təyinatı ilə bağlı keçirdiyi mətbuat konfransı öncəsi təyyarənin yanında onu gözləyiblər. Əl-Xelaifi evinə giriş icazəsi verib və səlahiyyətlilərlə əməkdaşlıq edib. Xatırladaq ki, iyulun 5-də PSJ-nin prezidenti Kristof Qaltyeni istefaya göndərdiyini və yeni baş məşqçi Luis Enrikeni təqdim etdiyi mətbuat konfransı keçirilib. Həmçinin mətbuat konfransı zamanı PSJ-nin Puassi şəhərində yeni məşq mərkəzinin açılışı rəsmən elan edilib.



# Türkiyə himninə hörmətsizlik edən erməni hakim cəzalandırıldı

***Moldovada keçirilən ağır atletika üzrə Avropa çempionatında Türkiyənin dövlət himninə hörmətsizlik edən erməni hakim cəzalandırılıb.***

"Unikal" xəbər verir ki, "İstiqlal Marşı" səsləndirilərkən hər kəs hörmət əlaməti olaraq ayaq üstə dayansa da, referi Nazik Avdalyan əyilərək telefonla məşğul olmağa başlayıb.

Haqqında şikayət verilən Avdalyanın titulu əsas hakimlikdən ehtiyat hakimliyə salınıb.

***Nuranə Abbasova***



# İdmançımız Avropadan medalla qayıdır

***Azərbaycan ağırlıqqaldıranı Yunis Bayramov Moldovanın paytaxtı Kişineuda keçirilən yeniyetmələr arasında Avropa çempionatında gümüş medal qazanıb.***

Ağır Atletika Federasiyasından bildirilib ki, yaşı 15-ə qədər olan oğlanlar arasında 67 kiloqram çəki dərəcəsində çıxış edən idmançı birdən qaldırma hərəkətində 99 kiloqramı ram edib və bu hərəkətdə yarışın bürünc mükafatçısı olub.

Təkanla qaldırmada 112 kiloqramın öhdəsindən gələn atlet həm bu hərəkətdə, həm də yekun sıralamada 211 kiloqram (99+112) nəticə ilə 4-cü yeri tutub.

Qeyd edək ki, daha əvvəl Turan Əliyev (67 kq) yaşı 17-yə qədər olan oğlanlar arasında Avropa üçüncüsü olub.

# Neymar gecə klubunda dava saldı



***PSJ və Braziliya millisinin hücumçusu olan tanınmış futbolçu Neymar Rio de Janeyroda gecə klublarından birində naməlum şəxslə dava edib.***

"Unikal" xəbər verir ki, bu barədə "Marca" yazıb. Futbolçu ilə bağlı insident ötən həftə sonu baş verib. Klubun təhlükəsizlik işçiləri məsələyə müdaxilə edib. Mübahisənin səbəbləri məlum deyil.

Məlumata görə, futbolçu hadisə zamanı sevgilisi Bruna Biancardi ilə birlikdə olub.

***Ağarza Elçinoğlu***

# "Neftçi"də yeni baş məşqçi təyinatı

***"Neftçi" klubuna yeni baş məşqçi təyin olunub.***

"Unikal" xəbər verir ki, bu barədə rumıniyalı mütəxəssis Marius Şumudike bildirib. Onun sözlərinə görə, Bakı klubunun rəhbərliyi 45-dən çox məşqçi arasından seçim edib: "Məlumat alanda yolda idim. Adını bilmirəm. Amma anlaşdıqlarından xəbərim var. Yekun siyahıda Adrian Muta da daxil olmaqla, üç məşqçinin adı var idi".

Qeyd edək ki, "Neftçi"yə son olaraq Laurentsiu Regekampf rəhbərlik edib. Klub ötən mövsümün sonunda rumıniyalı mütəxəssislə yollarını ayırıb.

# "Qarabağ"la oyun yoxlama matçına bənzəmədi" - Çerçesov

***"Yoxlama matçlarında "Qarabağ" və "Zalsburq" kimi rəqibləri ona görə seçdik ki, Çempionlar Liqasının təsnifat mərhələsinə hazırlaşırıq".***

Qol.az xəbər verir ki, bu sözləri "Ferentsvaroş"un (Macarıstan) baş məşqçisi Stanislav Çerçesov "Sport-ekpress" qəzetinə müsahibəsində deyib.

Rusiyalı mütəxəssis xatırladıb ki, "Qarabağ"la ötən mövsüm Çempionlar Liqasının üçüncü təsnifat mərhələsində qarşılaşıblar: "Bu dəfə yaxşı oyun alındı. Düzdür, görüş matçdan əvvəl müzakirə etdiyimiz kimi yoxlama oyununa bənzəmədi. Uşaqlar bir-birilərini bir az vurdular, amma final fitindən sonra qucaqlaşıb hər şeyi unutdular".

Xatırladaq ki, bugünlərdə "Qarabağ"la "Ferentsvaroş" arasında Avstriyada keçirilən yoxlama görüşü 3:3 hesabı ilə yekunlaşıb.